Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!

*(Qurani-Kərim, əl-Maidə, 69)*

## Azərbaycanda ayinlər öz dinlərinə uyğun məbədlərdə icra olunmalıdır

Trend-in məlumatına görə, bu sözləri jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Onun sözlərinə görə, Xristianlıq kilsələrdə, Yəhudilik isə sinaqoqlarda icra olunmalıdır: "Burada İslam dini ilə başqa dinlər arasında heç bir fərq yoxdur".

www.scwra.gov.az

Dinimiz milli-mənəvi sərvətimizdir.

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (303) / OKTYABR 2016-cı il

# Prezident İlham Əliyev: "Öz dininə hörmət edən mütləq başqasının dininə də hörmətlə yanaşmalıdır"

Oktyabrın 2-də Azərbaycan Respublikasına pastoral səfərə gələn Roma Papası Fransiskin rəsmi qarşılanma mərasimi olub. Qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Roma Papası Fransisk ilə görüşü olub.

Prezident İlham Əliyevin ailə üzvləri Papa Fransisklə görüşüblər. Papa Fransisk Prezident İlham Əliyevin ailə üzvlərinə hədiyyələr təqdim edib.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Roma Papası Fransisk Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxış ediblər.



**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı:**

-Zati-müqəddəsləri, hörmətli Roma Papası Fransisk həzrətləri.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, Zati-müqəddəsləri, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizə və nümayəndə heyətinizə "Xoş gəlmisiniz" deyirəm.

Keçən il Vatikanda görüşərkən mən Sizi Azərbaycana dəvət etdim və çox şadam ki, Siz dəvəti qəbul edib bu gün ölkəmizə səfər edirsiniz. Bu səfərin çox böyük mənası var. Bu, tarixi bir səfərdir. Bu səfər Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər bir daha onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək.

Vatikan-Azərbaycan əlaqələri artıq 24 ildir ki, uğurla inkişaf edir. Qeyd etdiyim kimi, qarşılıqlı yüksək səviyyəli rəsmi səfərlər həyata keçirilibdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. İlk müsəlman ölkəsinin sərgisi məhz Azərbaycan sərgisi idi. Bizim əlaqələrimiz, eyni zamanda, ictimai təşkilatlar tərəfindən dəstəklənir. Keçən ilin fevralında Cənubi Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın San Marçellinio və Pietro katakombalarının əsaslı təmir və bərpa işlərindən sonra açılışı olmuşdur. Bu gözəl hadisə bir daha onu göstərir ki, həm bizim ikitərəfli əlaqələrimiz uğurla inkişaf edir, eyni zamanda, dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsi reallığıdır.

Azərbaycanda əsrlər boyu bütün dinlərin, xalqların nümayəndələri sülh, ləyaqət, mehribanlıq şəraitində yaşamışlar, bu gün də belədir. İctimai-siyasi quruluşdan asılı olmayaraq, bizim diyarımızda həmişə sivilizasiyalar qovuşub, həmişə Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynayıbdır. Bu, həm coğrafi, eyni zamanda, mənəvi körpüdür. Azərbaycanda bütün dinlərin tarixi abidələri qorunub bərpa edilir. Azərbaycan çox qədim diyardır. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri – 743-cü ildə tikilmiş Şamaxı Cümə Məscidi Azərbaycanda yerləşir. Eyni zamanda, bölgəmizin ən qədim kilsələrindən biri – Qafqaz Albaniyası Kilsəsi də Azərbaycanda yerləşir. Bakıda qədim Atəşpərəstlər Məbədi vardır. Eyni zamanda, pravoslav, katolik kilsələri, sinaqoqlar dövlət tərəfindən qorunur və bərpa edilir.

2008-ci ildə Vatikan-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar hadisə baş vermişdir. Biz 2008-ci ildə Bakıda Katolik Kilsəsinin açılışını qeyd etmişdik. Bakıda Katolik Kilsəsi 1912-ci ildə inşa edilmişdir. Ancaq 1934-cü ildə sovet hakimiyyəti tərəfindən o kilsə dağıdılmışdır. Digər dini abidələr kimi, məscidlər, pravoslav kilsələri, sinaqoqlar da dağıdılmışdır. Müstəqil Azərbaycan dövləti qərar qəbul etdi ki, Bakıda Katolik Kilsəsi yenidən tikilsin və bu gün səhər, Zati-müqəddəsləri, Siz o kilsədə dini mərasim keçirmisiniz. Bu, əlamətdar hadisədir. İlk növbədə, biz tarixi ədalətsizliyi aradan qaldırdıq. Digər tərəfdən, bu, Azərbaycanda yaşayan katoliklər üçün çox böyük hədiyyə olmuşdur.

Bu gün ölkəmizdə dinlərarası, xalqlararası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Bunu təkcə biz demirik. Azərbaycan reallıqları ilə tanış olan bütün xarici nümayəndələr də bunu qeyd edirlər. Biz bir çox təşəbbüsləri irəli sürmüşük. Onların arasında "Bakı prosesi" artıq dünyada böyük şöhrət qazanmışdır. "Bakı prosesi" 2008-ci ildə başlamışdır. Azərbaycan nadir ölkələrdəndir ki, həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzvdür. 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına biz müsəlman ölkələrinin mədəniyyət nazirlərini dəvət etdik. Tarixdə ilk dəfə idi ki, iki qurum arasında əlaqə yarandı və bu əlaqəni biz yaratdıq. 2009-cu ildə isə Bakıda müsəlman ölkələrinin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından nazirləri dəvət etdik. Beləliklə, bu prosesə "Bakı prosesi" adı verildi. Bu gün ölkəmizdə "Bakı prosesi" çərçivəsində bir çox beynəlxalq tədbirlər keçirilir. Onların içində Dünya Dini Liderlərinin Zirvə görüşünü qeyd etmək olar. İki gün bundan əvvəl V Bakı Beynəlxalq Humanitar Forumu öz işini başa vurdu və bu Forumun əsas mövzularında biri multikulturalizmdir. İki ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

Bu təşəbbüslərin bir məqsədi var ki, bütün dinlərin nümayəndələri bir-biri ilə əməkdaşlıq etsinlər, qarşıdurmaya yol verilməsin. Bizim bu sahədəki uğurlu fəaliyyətimizi nəzərə alaraq BMT qərar qəbul etmişdir ki, bu beynəlxalq qurumun Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Bakıda keçirilsin. Biz bu il bu Forumu Bakıda böyük müvəffəqiyyətlə keçirdik.

Belə tədbirlərin keçirilməsi ilk növbədə bizim özümüzə, insanlarımıza lazımdır. Çünki bu, bizim cəmiyyətimizə göndərilən çox müsbət bir mesajdır. Digər tərəfdən, bu, bütün dünyaya lazımdır. Əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində dini, milli zəmində müharibələr, münaqişələr, qarşıdurmalar güclənir. Biz isə belə təşəbbüsləri irəli sürərək göstəririk ki, birgə yaşamaq mümkündür, bir-birinə hörmət etmək lazımdır. Öz dininə hörmət edən mütləq başqasının dininə də hörmətlə yanaşmalıdır.

Bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bizim üçün multikulturalizm həm həyat tərzidir, həm dövlətimizin apardığı siyasətdir. Multikulturalizm ideyalarının təbliği işində Azərbaycan dünya miqyasında çox önəmli rol oynayır. Əfsuslar olsun, bəzi xadimlər, siyasətçilər, liderlər multikulturalizmlə bağlı bədbin fikirlər söyləyirlər ki, multikulturalizm iflasa uğrayıb, bunun gələcəyi yoxdur. Bu, çox təhlükəli və yanlış fikirlərdir. Biz isə Azərbaycanda sübut edirik ki, multikulturalizm yaşayır, inkişaf edir və ölkəmizi irəliyə aparır. Multikulturalizmin ünvanlarından biri Azərbaycandır. Fəxr edirik ki, biz çoxmillətli, çoxkonfessiyalı ölkəyik. Azərbaycanda bütün dinlərin nümayəndələri ləyaqətlə yaşayırlar. Onlar ölkəmizin dəyərli vətəndaşlarıdır və bizim ümumi inkişafımıza böyük töhfələr verirlər.

Biz, ümumiyyətlə, humanitar sahədə böyük işlər görürük, təhsilə böyük diqqət göstərilir. Azərbaycanda savadlılığın səviyyəsi təxminən yüz faizdir. Savadlılıq ekstremizmə, radikalizmə, nadanlığa qarşı bir səddir. Ona görə, Azərbaycanda təhsilin inkişafına böyük diqqət göstərilir.

Azərbaycan zəngin mədəni irsə malikdir və bu, bizim cəmiyyətimizin əsasıdır. Biz milli mənəvi dəyərlərimizə çox sadiqik. Eyni zamanda, biz müasir, dünyəvi ölkəyik. Azərbaycan bu bölgədə müasirlik və inkişaf baxımından fərqlənən ölkələrdəndir.

səh. 2

# Prezident İlham Əliyev: "Öz dininə hörmət edən mütləq başqasının dininə də hörmətlə yanaşmalıdır"

(əvvəli 1-ci səhifədə)

Əfsuslar olsun ki, bizim xalqımız humanitar fəlakətlə üzləşmişdir. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində tarixi torpağımız olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bizim vətəndaşlarımız - bir milyon azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altındadır, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir ki, bu gün 10 ölkə bu soyqırımını rəsmən tanıyıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib. O missiyaların məruzələri insanı dəhşətə gətirir. Bizim bütün tarixi, dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib. Biz isə Bakıdakı erməni kilsəsini bərpa etdik. Bu kilsədə erməni dilində beş mindən çox kitab saxlanılır. Bax, fərq bundan ibarətdir. Bu, onların hərəkətləri, bu da bizim münasibətimiz. Ona görə, təsadüfi deyil ki, Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi tanıyırlar.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə gəldikdə, bu münaqişə beynəlxalq hüquq çərçivəsində həll edilməlidir. BMT Təhlükəsizlik Şurası - dünyanın ali qurumu bu münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir və iyirmi ildən çoxdur torpaqlarımız işğal altındadır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün başqa münaqişələr kimi, ölkələrin suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Qeyd etdiyim kimi, bu münaqişədən ölkəmiz, xalqımız böyük əziyyət çəkir. 1990-cı illərin əvvəllərində əhalimiz 8 milyon nəfər idi ki, onlardan bir milyonu qaçqın-köçkün vəziyyətinə düşüb. Yəni, o humanitar fəlakəti biz öz gücümüzə həll etdik və həll edirik. Buna baxmayaraq, ölkəmiz inkişaf edir. Bu ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan böyük və şərəfli yol keçib. Biz beynəlxalq aləmdə böyük hörmətə malikik. Bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycana səs verib, bizi BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçib.

Son 13 il ərzində iqtisadiyyatımız üç dəfə artıb. Yoxsulluq, işsizlik 5 faizə düşüb. Azərbaycanda bir çox sosial layihələr icra edilir. Biz müasir dövlət qurmuşuq. Bu gün Azərbaycan müstəqilliyinin bərpasının 25 illiyini nikbinlik əhvalruhiyyəsində qarşılayır. Çünki biz dünyaya sübut etdik ki, azad, müstəqil ölkə kimi yaşaya bilərik, uğurla yaşaya bilərik. Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan möhkəm ayaqda durur. Biz müasir, dünyəvi, inkişaf edən, əməkdaşlığa açıq olan ölkəyik.

Zati-müqəddəsləri, Sizin Azərbaycana səfəriniz bizim üçün tarixi hadisədir. Bu, bizim üçün böyük şərəfdir. Siz bu gün səhər Katolik Kilsəsində dini mərasim keçirmisiniz. Bu görüşdən sonra Siz ölkəmizin ən böyük məscidi olan Heydər məscidinə gedəcəksiniz. Siz Bakıdan bütün dünyaya çox açıq-aydın mesaj göndərirsiniz ki, multikulturalizm, dinlərarası dialoq, xoş niyyət, xoş münasibət zəfər çalmalıdır, üstünlük təşkil etməlidir.

Mən bugünkü görüşümüzdə Sizə minnətdarlıq bildirərkən dedim ki, Siz öz səfərinizlə bütün dünyanın diqqətini Azərbaycana cəlb etmisiniz. Bütün qitələrdə Sizin davamçılarınız, Sizi dəstəkləyənlər bu gün Bakıya baxırlar, ölkəmizlə, şəhərimizlə tanış olurlar, görürlər ki, dünyada, müsəlman aləmində müasir, dünyəvi, inkişaf edən ölkə var. Görürlər ki, bütün dünya katoliklərinin rəhbəri, Zati-müqəddəsləri Fransisk bu gün Bakıdadır. Buna görə bir daha bütün Azərbaycan xalqı adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

**Roma Papası Fransiskin çıxışı**

-Cənab Prezident.

Hörmətli hökumət nümayəndələri.

Hörmətli diplomatik korpusun üzvləri.

Xanımlar və cənablar.

Azərbaycana səfər etməkdən olduqca şadam və Xəzər dənizinin sahillərinə açılan ölkənin paytaxtında – bu şəhərdə səmimi qəbulunuza görə Sizə minnətdarlığımı bildirirəm. Bu görüşün keçirildiyi tam yeni bu bina və digər yeni binaların sayəsində şəhərin siması tamamilə dəyişib.

Cənab Prezident, Azərbaycan hökuməti və xalqı adından ünvanıma söylədiyiniz səmimi salamlama sözlərinə və nəzakətli xanımınızla ötən il Vatikana etdiyiniz səfərinizə cavab olaraq, səmimi dəvətiniz sayəsində mənə yaratdığınız bu fürsətə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Mən bu ölkəyə hazırkı cəmiyyəti səciyyələndirən və müasir Azərbaycan dövlətinin çiçəklənməsi ilə nəticələnən təcrübə, dəyərlər və xüsusiyyətlər toplusunu formalaşdıraraq, bu torpaqda tarix boyu yaşamış çoxsaylı xalqların verdiyi töhfənin nəticəsi kimi mədəniyyətinizin çoxçalarlılığı və zənginliyinə qəlbimdəki vurğunluqla gəlmişəm. Qarşıdan gələn 18 oktyabr tarixində Azərbaycan öz müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Bu tarix ölkənin həmin onilliklər ərzində yaşadığı hadisələrə, əldə etdiyi nailiyyətlərə və üzləşdiyi problemlərə birgə nəzər salmaq fürsətini yaradır.

Bu günə qədər keçdiyiniz yol dövlətin iqtisadi və vətəndaş cəmiyyətinin inkişafına şərait yaratmaq və təsisatları gücləndirmək üçün göstərilmiş mühüm səyləri aydın şəkildə göstərir. Bu yol hamıya, xüsusən zəiflərə daim diqqətin göstərilməsini tələb edir. Bu yol multikulturalizmin və mədəniyyətlərin bir-birini lazımi qaydada tamamlanmasının müsbət cəhətlərini tanıyan cəmiyyət sayəsində mümkündür. Bu, vətəndaş cəmiyyətinin müxtəlif komponentləri və fərqli dini konfessiyalara mənsub olan şəxslər arasında qarşılıqlı əməkdaşlıq və hörmət münasibətlərinin yaranması üçün edilir.

Fərqlər arasında ahəngdarlığın yaradılması məqsədilə bu birgə səylər hazırkı dövrdə xüsusi əhəmiyyət daşıyır, çünki digər düşüncə və fikir sahiblərinin hüquqlarını pozmayaraq, öz ideya və fikirlərinin bərqərar olmasının mümkünlüyünü göstərir. Hər bir etnik və ideoloji mənsubiyyət digər dini yol kimi zorakılıq və hökmranlıq istəklərini qanuniləşdirmək məqsədilə öz fikirlərini, özünəməxsusluğunu və ya Tanrının adını sui-istifadə edən davranış və konsepsiyaları yalnız və yalnız istisna edə bilər.

Səmimi qəlbdən arzu edirəm ki, Azərbaycan müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq yolunu davam etdirsin. Qoy, hər zaman ahəngdarlıq və sülh şəraitində yan-yana yaşama ümumi rifaha hər kəsin töhfə vermək imkanını təmin edərək, çoxsaylı sahələrdə ölkənin sosial və vətəndaş həyatını canlandırsın.

Əfsuslar olsun ki, dünya dözümsüzlükdən qaynaqlanan, zorakı ideologiya ilə qızışdırılan, zəif təbəqələrin hüquqlarının inkar edilməsindən irəli gələn çoxsaylı münaqişələr faciəsini yaşayır. Bu cür təhlükəli meyillərə qarşı qətiyyətlə mübarizə aparmaq üçün sülh mədəniyyətini inkişaf etdirməliyik, çünki o, dialoq və hörmətin daimi varlığından qaynaqlanır. Çünki razılıq doğuran həll variantlarına, etibarlı yollara və daimi əlaqələrə, səbrə alternativ yoxdur.

Bir millət daxilində müxtəlif komponentlər arasında ahəngdarlığın təşviq olunmasını labüd hesab edərək, dövlətlər arasında da əsl tərəqqiyə və xalqların azadlığına aparan yolu müdrikliklə, cəsarətlə keçmək və davamlı razılığa, sülhə yol açan vasitələri öyrənmək vacibdir. Xalqları həlli çətin olan ağır əziyyətlərdən, ağrılı çətinliklərdən bu cür qorumaq olar.

Bu ölkəyə gəldikdə, qanlı münaqişə səbəbindən öz torpaqlarını məcburiyyət qarşısında tərk etmiş, əziyyət çəkən bu qədər şəxslərə böyük vəchlə yaxınlığımı bildirmək istəyirəm. Arzu edirəm ki, beynəlxalq ictimaiyyət öz lazımi yardımını daim göstərsin. Eyni zamanda, yeni mərhələnin başlanmasını mümkün etmək məqsədilə bölgədə sabit sülhün qurulması üçün razılıq doğuran həll variantına nail olmaq naminə hamını əlindən gələni etməyə çağırıram. İnanıram ki, Tanrının himayəsi ilə və tərəflərin xoş iradəsi sayəsində Qafqaz dialoq və danışıqlar yolu elə bir məkana çevriləcək ki, ziddiyyətlər və fərqlər çözüləcək, aradan qalxacaq. Ölkənizə səfəri zamanı müqəddəs II İoann Pavelin gözəl kəlamı ilə desək, qoy, "Şərq ilə Qərbin arasında qapı" olan bu məkan sülhə açıq olsun və digər keçmiş, eləcə də yeni münaqişələrin həlli üçün nümunəyə çevrilsin.

Davamçıları ölkədə sayca az olan Katolik Kilsəsi Azərbaycanın vətəndaş və sosial həyatına qovuşur, sevincini bölüşür və çətinliklərin aradan qaldırılmasında iştirak edir. 2011-ci ildə Müqəddəs Taxt-Tacla beynəlxalq sazişin ratifikasiyasından sonra Kilsənin hüquqi şəxs kimi tanınması Azərbaycanda katolik icmasının həyatının sabit olması üçün normativ əsası yaratdı.

Bununla yanaşı, katolik icmasının müsəlman, pravoslav və yəhudi icmaları ilə səmimi münasibətləri saxlamasından xüsusi olaraq məmnunam və arzu edirəm ki, dostluq və əməkdaşlıq telləri daha da artsın. Bu cür yaxşı münasibətlər sülh şəraitində yan-yana yaşama və dünyada sülh üçün xüsusi əhəmiyyət kəsb edir və göstərir ki, müxtəlif dini konfessiyaların mənsubları arasında səmimi əlaqələr, hörmət və hamının rifahı üçün əməkdaşlıq mümkündür.

Əsl dini dəyərlərə bağlılıq hər şeydən əvvəl Tanrının müqəddəs adından istifadə edərək, zorakılıqla öz baxışlarını digər şəxslərə qəbul etdirmək cəhdinə tam ziddir. Tanrıya inam cəmiyyətin ümumi rifahına xidmət edən qarşılıqlı anlaşmaya və hörmətə, qarşılıqlı yardıma sövq edən əsl mənbədir.

Qoy, Tanrı Azərbaycana harmoniya, sülh və çiçəklənmə nazil etsin.

* * *

Sonra Roma Papası Fransisk Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat və elm xadimləri ilə görüşüb və Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb. Daha sonra xatirə şəkli çəkdirilib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Roma Papası Fransiski yola salıblar.

Sonda Roma Papası Azərbaycanda fəaliyyət göstərən dini icmaların rəhbərləri ilə söhbət edib.

* * *

Roma Papası Fransiskin Azərbaycan Respublikasına pastoral səfəri həmin gün başa çatıb.

## Azərbaycanın yəhudi icmasına

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının qədim milli bayramlarından olan Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illərdir ölkəmizdə məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudilər Azərbaycanda heç vaxt antisemitizmə və ayrıseçkiliyə məruz qalmamış, tarixən xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin, etnik-dini tolerantlığın, multikultural mühitin hökm sürdüyü çoxmillətli cəmiyyətimizdə əmin-amanlıq şəraitində yaşayaraq dil və mədəniyyətlərini, milli-mənəvi adət-ənənələrini günümüzə qədər qoruyub saxlamışlar.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq insan hüquq və azadlıqlarının təminatı, o cümlədən, ölkədə sabitlik, əmin-amanlıq və vətəndaş həmrəyliyi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bunun üçün ölkəmizdə həqiqi demokratik və siyasi-hüquqi şərait yaradılmışdır.

Məmnuniyyət hissi ilə onu da qeyd etmək istərdim ki, yəhudi əsilli vətəndaşlarımız bu gün müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, elmi-mədəni həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirir.

Hər il təntənə ilə keçirilən Roş-Ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınızı səmimi qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev***

***Azərbaycan Respublikası Prezidenti***

Bakı şəhəri, 30 sentyabr 2016-cı il.

# Beyləqan rayonunda "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda konfrans keçirilib




Oktyabrın 26-da Beyləqan rayon Mədəniyyət Mərkəzində "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Beyləqan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan konfransda dini icmaların rəhbərləri, din xadimləri, ilahiyyatçılar, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Konfrans DQİDK-nın sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev tədbiri açaraq, konfransın əhəmiyyətini vurğulayıb, ölkəmizdə tarixən hökm sürən multikultural mühitin bu gün də davam etdiyini, müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əsas məqsədinin Azərbaycandakı dini tolerantlıq, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqindən ibarət olduğunu deyib.

Komitə sədri xalqımızın əsrlər boyu formalaşdırdığı milli-mənəvi dəyərlərdən və onun qorunmasından, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyasından bəhs edib, Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin əsasında Azərbaycançılıq ideologiyasının dayandığını bildirib.

Müstəqilliyimizi bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətləndiyini vurğulayan Komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və referendumla qəbul olunmuş Konstitusiyamızda vicdan azadlığı təsbit edilib. Dövlət-din münasibətlərini tənzimləyən qanun qəbul olunub. Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti müəyyənləşib. Əgər sovetlər dönəmində Azərbaycanda 17 məscid var idisə, hazırda 2 mindən çox ibadət məkanı fəaliyyət göstərir.

M.Qurbanlı qeyd edib ki, Azərbaycan dünyəvi dövlətdir. Din dövlətdən ayrıdır. Lakin dövlət dinə hərtərəfli dəstək göstərir. Dini icmalara dövlət tərəfindən yardımlar edilir. Eyni zamanda, ölkəmizdə dinin siyasiləşməsi, dindən siyasi məqsəd üçün istifadə edilməsi qadağandır.

Komitə sədri diqqəti son dövrlər dünyada İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasına çəkərək, dini radikalizm və ekstremizmin fəsadlarından, bu kimi halların qarşısının alınması yollarından bəhs edib. Bildirib ki, Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu mübarizədə ən səmərəli vasitə maarifləndirmə işidir.

Milli Məclisin deputatı Şahin İsmayılov və Qafqaz Müsəlmanları İdarəsinin qazısı Ramazan Hüseynov konfransda çıxış edərək, ölkəmizdə multikultural mühitin dərin tarixi köklərə malik olduğunu, müxtəlif dinlərin, məzhəblərin, xalqların fikir ayrılığı olmadan, dinc, qardaşlıq şəraitində yaşadığını bildiriblər. Qeyd olunub ki, Azərbaycanda tarixən formalaşan multikultural və tolerant dəyərlər yüksək səviyyədə qorunur.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Beyləqanda vətəndaşları qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.**

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Beyləqan şəhərində Beyləqan, Füzuli və İmişli rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoyublar.

Heydər Əliyev Mərkəzidə keçirilən qəbulda 19 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, məscidlərin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Qəbula gələnlər yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



# Beyləqanın Şahsevən kəndində ziyalılar və gənclərlə görüş keçirilib



**Bu gün Beyləqanda "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda keçirilən regional konfrans çərçivəsində Beyləqan rayonunun II Şahsevən kənd tam orta məktəbində I və II Şahsevən kəndlərində fəaliyyət göstərən 3 məktəbin pedoqoji kollektivinin, gənclərin və kənd ziyalıların iştirakı ilə tədbir baş tutub.**

Tədbirdən öncə "Fitnə" sənədli filmi nümayiş etdirilib.

Filmin nümayişindən sonra DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxış edərək Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak edənlər arasında Şahsevən kənd sakinlərinin də olması faktına diqqət çəkərək, görüşün məhz bu kənddə keçirilməsinin təsadüfi olmadığını bildirib. Dini radikalizmin törətdiyi faciələrdən bəhs edən Gündüz İsmayılov qeyd edib ki, "Fitnə" sənədli filmində müsahibə verən şəxslərdən biri - övladı Suriyada həlak olmuş valideyn Şahsevən kənd sakinidir.

Komitənin sədr müavini ölkəmizin zəngin multikultural mühitinə əsas təhlükə törədən potensial və real təhdidlərə diqqət çəkərək, dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən bəhs edib. Bildirib ki, məzhəb müxtəlifliyi şəraitində multikultural cəmiyyətlərdə, xüsusilə İslam dininə mənsub toplumlarda ənənəvi İslamın zəifləməsi fonunda xarici təsirlərin güclənməsi prosesi gedir. Dini radikalizmin güclənməsi dinin siyasiləşdirilməsinə, tolerantlığın zəifləməsi ilə məzhəbçiliyin güclənməsinə, dini kimliyin milli kimliyə qarşı qoyulmasına, cəmiyyətdə qütbləşmənin və sosial təbəqələşmənin yaranmasına aparıb çıxarır. Belə cəmiyyətlərdə qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyillərinin artması, dünyəvi təhsilə qarşı çıxışların müşahidə olunması xarakterik haldır.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov mövzu ətrafında danışaraq, zərərli dini cərəyanların əsas fəaliyyət metodlarına toxunub.

Diskussiya şəraitində keçən tədbirdə dini radikalizmə qarşı birgə mübarizənin vacibliyi, bu sahədə ziyalıların və müəllimlərin üzərinə düşən vəzifələr, eyni zamanda milli-mənəvi dəyərlərimizin qorunması, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri barədə geniş fikir mübadiləsi aparılıb.

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkələrdəki filial rəhbərləri ilə görüş olub



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində ölkəmizə gələn Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) xarici ölkələrdəki filial rəhbərləri ilə görüşüb.

Görüşdə BBMM-in icraçı direktoru Azad Məmmədov, Mərkəzin müşaviri Aytən Qəhrəman, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və sədr müavini Gündüz İsmayılov da iştirak ediblər.

BBMM-in Drezden filialının rəhbəri Birgit Vaysgerber, Moskva filialının rəhbəri Nataliya Krasovskaya, Lissabon filialının rəhbəri Teresa Damasio, Yekaterinburq filialının rəhbəri Aleksandr Nesterov və başqaları iştirak etdikləri V Bakı Beynəlxalq Humanitar Forumu haqda təəssüratlarını bölüşüb, gələcəkdə Azərbaycan multikulturalizm modelinin mütərəqqi bir model kimi dünyada təbliği istiqamətində görəcəkləri işlər barədə danışıblar.

Müxtəlif ölkələrdə fəaliyyət göstərən filialların bir-biri ilə sıx əlaqədə olması və qarşılıqlı informasiya mübadiləsi haqda aparılan müzakirələrdə müəyyən bir sabit əlaqə platformasının yaradılması qərara alınıb. Xaricdə Azərbaycan multikulturalizmini öyrənən və yaratdıqları Azərbaycanın Gənc Dostları Klubu ilə fəaliyyətlərini daha da sistemləşdirən gənclərin filiallararası münasibətlərin daha sıx qurulmasına da yardım edə bilmək imkanlarının ortaya çıxarılması, onların bu istiqamətdə fəaliyyətinin stumullaşdırılması üçün layihələrin həyata keçirilməsinin vacibliyi qeyd edilib.

Dövlət müşaviri Kamal Abdullayev və Komitə sədri Mübariz Qurbanlı hər bir filial rəhbərinə bu istiqamətdə atılacaq addımlarda davamlı dəstək olacaqlarını bildiriblər və onlara Azərbaycan multikulturalizminin və tolerantlığının dünyada təbliği işində göstərdikləri fəaliyyətlərinə görə təşəkkür ediblər.

# Lənkəranda "Milli-mənəvi dəyərlərimizin qorunmasında ictimaiyyətin rolu" mövzusunda regional konfrans keçirilib



**Oktyabrın 3-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində "Milli-mənəvi dəyərlərimizin qorunmasında ictimaiyyətin rolu" mövzusunda regional konfrans keçirilib.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə cənub bölgəsinin din xadimləri, ziyalılar, tələbə-gənclər, hüquq-mühafizə orqanlarının rəhbərləri və yerli icra strukturlarının nümayəndələri iştirak ediblər.

Konfransda çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf kursunun ölkəmizdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, sürətlə inkişaf edən Azərbaycanın dünyanın ən tolerant, multikultural və sivil dövlətlərindən birinə çevrildiyini bildirib.

T.Qaraşov çıxışında, həmçinin multikulturalizmin hökm sürdüyü Azərbaycanda, o cümlədən Lənkəranda dövlət-din münasibətlərinin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun tənzimləndiyini, milli mənsubiyyətindən asılı olmayaraq hər bir inanclı insanın dini etiqad azadlığının Konstitusiya normaları səviyyəsində təmin edildiyini, bugünkü möhkəm siyasi sabitliyin, vətəndaş həmrəyliyinin Ulu Öndər Heydər Əliyevin müdrik düşüncəsinin, Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin misilsiz bəhrəsi olduğunu diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra respublikamızda məscidlərə, ziyarətgahlara xüsusi önəm verilib, diqqət və qayğı göstərilib.

Ümummilli Liderin Aşura günləri məscidlərə gəldiyini, dindarlarla, inanclı insanlarla görüşdüyünü, onların qarşısında çıxış etdiyini, fikir mübadiləsi apardığını vurğulayan A.Paşazadə hazırda bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən milli-mənəvi dəyərlərimizə xüsusi önəm verildiyini bildirib.

Dövlət-din münasibətlərindən söz açan Şeyxülislam ibadətlərin məscidlərdə keçirilməsinin vacibliyini, bütün dindarların, ziyalıların, ictimaiyyət nümayəndələrinin mənfi hallara qarşı birgə mübarizəsinin zəruriliyini diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında regional konfransın əhəmiyyətini yüksək qiymətləndirərək, ölkəmizdə milli-mənəvi dəyərlərin, adət-ənənələrimizin qorunması sahəsində görülən işlərdən, dövlət-din münasibətlərindən danışıb.

Sovetlər dönəmində respublikamızda 17 məscidin mövcudluğunu qeyd edən Komitə sədri hazırda Azərbaycanda 2050 məscidin fəaliyyət göstərdiyini bildirib.

Din adı, pərdəsi altında ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına çalışan radikal qüvvələrin qarşısının alınmasında birgə mübarizənin vacibliyini söyləyən Mübariz Qurbanlı dini ayinlərin yalnız məscidlərin həyətlərində və daxilində icra edilməsinin məqsədəmüvafiq olduğunu vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi elmi-dini şurasının sədri, akademik Vasim Məmmədəliyev çıxışında bildirib ki, dinimizdə fanatizm yoxdur və o qəbul edilmir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin qətiyyətlə, inamla davam etdirdiyi siyasət nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik yaranıb, milli-mənəvi dəyərlərə böyük önəm verilir. Bütün bunlar isə Azərbaycanı dünyada tolerant, multikultural dövlət kimi tanıdıb.

Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə milli-mənəvi dəyərlərin mahiyyətindən söz açıb, talassemiyalı, hemofiliyalı xəstələr üçün keçiriləcək qanvermə aksiyasının mütəşəkkil icra olunacağına əminliyini ifadə edib.

Milli Məclisin deputatları Hadi Rəcəbli, Cavanşir Paşazadə, Hüseynbala Mirələmov və Nəriman Əliyev ölkəmizdə dövlət-din münasibətlərindən, milli-mənəvi dəyərlərin qorunmasında ictimaiyyətin rolundan danışıblar.

Sonra məscidlərin axundları, ağsaqqallar, ziyalılar və ictimaiyyətin nümayəndələri çıxış edərək mövzu ilə bağlı fikirlərini bildiriblər.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müşavirə keçirilib

**Oktyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib. Müşavirədə Dövlət Komitəsinin rəhbərliyi, eləcə də mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.**



Müşavirəni açan DQİDK sədri Mübariz Qurbanlı gündəlikdəki məsələlər barədə ətraflı məlumat verərək, maarifləndirmə məqsədi ilə keçirilən silsilə tədbirlərin davam etdirilməsinin zəruriliyini qeyd edib. Komitə sədri bildirib ki, dini radikalizmin yayılmasına qarşı Dövlət Komitəsi tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri öz bəhrəsini verməkdədir. Davamlı olaraq respublikamızın bütün şəhər və rayonlarında milli-mənəvi və dini dəyərlərimizin, həmçinin, Azərbaycanın tolerantlıq və multikultural ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür.

Müşavirədə ölkədəki mövcud dini durum, dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin qorunması və digər aktual məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Məhərrəm ayının başlaması ilə əlaqədar olaraq Aşura günü təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımız və qazilərimiz də anılmalı, bütün mərasim və tədbirlər qanun çərçivəsində təşkil edilməlidir.

Müşavirədə bölgə şöbə müdirlərinin hesabatları dinlənilib, dini icmaların maarifləndirmə işlərinin davam etdirilməsi məqsədilə layihələrə cəlb edilməsi məsələləri müzakirə olunub.

Sonda müzakirə olunan məsələlərlə bağlı bölgə şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# "Qeyri ayrı-seçkilik və tolerantlığın təşviqinə dair dinlərarası dialoq" mövzusunda seminar təşkil olunub

**Oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun birgə təşkilatçılığı ilə "Qeyri ayrı-seçkilik və tolerantlığın təşviqinə dair dinlərarası dialoq" mövzusunda ikigünlük seminar başlayıb.**



Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Azad Məmmədov, Roma-Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Avropa yəhudiləri Bakı dini icmasının baş ravvini Şneor Siqal, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Tolerantlıq və qeyri ayrı-seçkilik departamentinin rəhbəri Kristina Finç iştirak edir. Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinin əməkdaşı Etibar Nəcəfov seminarı giriş sözü ilə açaraq Dövlət müşaviri Kamal Abdullayevin adından seminar iştirakçılarını salamlayıb. Etibar Nəcəfov çıxışında Azərbaycanın multikulturalizmə alternativi olmayan mütərəqqi bir siyasət kimi yanaşdığını qeyd edib. Bu siyasətin nəticəsində ölkəmizdə dini etiqad azadlığının təmin olunduğu, rəsmi fəaliyyət göstərən bütün dini icmaların qanun qarşısında eyni məsuliyyət daşdıqları və dini radikalizmin qarşısının alındığı diqqətə çatdırıb.

E.Nəcəfov dövlətimizin multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdə mövcud olan etnik-mədəni dəyərlərin qorunmasında, etnik toplumlar arasında dostluq və qardaşlıq mühitinin formalaşmasında əldə olunan nəticələri vurğulayaraq bildirib ki, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların din azadlığı hüquqlarının müdafiə olunmasına dövlətimiz xüsusi fikir verir. Alban Apostol aftokefal kilsəsinin bərpası istiqamətində görülən işlər, Alban-Udi, eləcə də pravoslav kilsələrinin, sinaqoqların bərpa olunması və yenilərinin tikilməsi, Bakının mərkəzində erməni kilsəsinin bərpa olunması və qorunması buna əyani sübutdur. Eyni zamanda, müstəqillik dövründə ölkəmizdə iki mindən çox məscid tikilib, qədim dini-tarixi abidələr bərpa edilib. "İmamzadə" kompleksində, Şamaxı Cümə məscidində aparılan təmir-bərpa və tikinti işləri başa çatdırılaraq istifadəyə verilib. Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan Heydər məscidi isə Azərbaycanın ən böyük məscididir.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Tolerantlıq və qeyri ayrı-seçkilik departamentinin rəhbəri Kristina Finç çıxışında seminar iştirakçılarına öz təşəkkürünü bildirib. Kristina Finç Büronun bu sahədə gördüyü işlərdən danışaraq, maarifləndirmə məqsədilə keçirilən ikigünlük seminarın əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, seminarin məqsədi Avropa məkanında və dünyada dinlərarası dialoqun təşviq edilməsi və bu sahədə dünya ölkələri və Azərbaycanın təcrübələrinin bölüşdürülməsidir.

Daha sonra Avropa yəhudiləri Bakı dini icmasının baş ravvini Şneor Siqal çıxış edərək Azərbaycandakı tolerantlıq mühitindən danışıb. Ravvin qeyd edib ki, Azərbaycan tolerantlığın canlı nümunəsidir və ölkəmizdə bütün dinlərin nümayəndələrinə bərabər münasibət göstərilir.

Seminar işini oktyabrın 11-də müzakirələrlə davam etdirib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Mixail Georq Link, Avropa kilsələri şurasının icraçı katibi Elizabet Kitanoviç, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndələri, DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli, ilahiyyatçı-alim Aqil Şirinov, dini konfessiyaların nümayəndələri və gənclər iştirak ediblər.

Seminar ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Din və etiqad azadlığı üzrə baş məsləhətçisi Kişan Manocanın moderatorluğu ilə effektiv dinlərarası dialoqun asanlaşdırılması mövzusunda müzakirələrlə başlayıb.

Avropa Kilsələri Konfransının icraçı direktoru Elizabet Kitanoviç çıxış edərək bu cür müzakirələrin təşkil edilməsinin digər dinlərə və mədəniyyətlərə hörmətlə və dözümlü yanaşmaq üçün geniş imkanlar yaratdığını deyib.O bildirib ki, dini dözümsüzlüyün aradan qaldırılması çox mühüm problemdir.

DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli Azərbaycanda dinlərarası dialoqun vəziyyəti barədə məlumat verərək bildirib ki, ölkəmizdə bütün dini konfessiyaların nümayəndələri arasında bərabərlik mövcuddur. Dini müxtəlifliyə hörmətin və tolerantlıq ənənələrinin yüksək səviyyədə olduğunu deyən N.Məmmədli Azərbaycanda bu mühitin tarixinin qədim olduğunu bildirib. O qeyd edib ki, müxtəlif dinlərə, mədəniyyətlərə qarşı dözümlülük Azərbaycan müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsaslarından birinə çevrilib. N.Məmmədli bildirib ki, ölkəmizdə məzhəblərarası ayrı-seçkilik müşahidə edilməyib, mütəmadi olaraq dövlət tərəfindən İslam və qeyri-İslam dini icmalarına maliyyə vəsaiti ayrılır. Ölkəmizdə 27 qeyri-islam, 700-dən artıq İslam dini icması fəaliyyət göstərir və Azərbaycanın dünyəvi dövlət olmasına baxmayaraq, onlar hamısı dövlətin qayğısını hiss edirlər.

Daha sonra ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Mixail Georq Link çıxış edib. O bildirib ki, dinlərarası dialoqun asanlaşdırılması üçün Azərbaycanın təcrübəsindən yararlanmaq olduqca vacibdir. Seminarın məlumat və təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu deyən Mixail Link Azərbaycanda dəfələrlə səfərdə olduğunu bildirib. O deyib ki, Azərbaycanda müşahidə etdiyi dini dözümlülük mühiti, insanların digər dinlərin, xalqların nümayəndələrinə humanist münasibəti, müxtəlif dinlərin nümayəndələrinin sərbəst şəkildə dini abidələri ziyarət etməsi, rahat şəraitdə ibadət etmələri onu heyrətləndirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək Azərbaycanın din tarixi barədə seminar iştirakçılarına geniş məlumat verib. O bildirib ki, ölkəmizdə bütün dinlərin nümayəndələri sülh və qardaşlıq mühitində yaşayırlar. Azərbaycanın dinlərarası dialoq fəaliyyətləri üçün tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan ölkə olduğunu deyən Səyyad Salahlı bugün bu sahədə dünyanın dialoqa böyük ehtiyacı olduğunu vurğulayıb. O bildirib ki, dinlərarası dialoqun və əməkdaşlığın reallaşmasında din xadimlərinin üzərinə böyük vəzifə və məsuliyyət düşür. Bəşəriyyətin gələcək taleyi və sabitliyi müəyyən mənada dinlər və mədəniyyətlərarası dialoqun baş tutmasından, eləcə də birgə əməkdaşlığın genişlənməsindən asılıdır.

Səyyad Salahlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun birgə təşkilatçılığı ilə baş tutan ikigünlük seminarın bu sahədə uğurlu olacağına əmin olduğunu bildirib.

Seminar işini müzakirələrlə və çıxışlarla yekunlaşdırıb.

# Dövlət Komitəsinin sədri Fransanın Azərbaycandakı səfiri xanım Oreliya Buşezlə görüşüb



Oktyabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fransanın Azərbaycandakı səfiri xanım Oreliya Buşezlə görüşüb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan-Fransa münasibətlərinin yüksək səviyyədə qurulduğunu deyərək Fransanın Avropa ölkələri arasında Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olduğunu vurğulayıb. Komitə sədri DQİDK-nın fəaliyyəti barədə səfirə geniş məlumat verib. O deyib ki, Komitə dövlətin din siyasətini həyata keçirir, din sahəsində qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarət edir. Ölkəmizin dünyəvi dövlət olduğunu bildirən Mübariz Qurbanlı dini ekstremizmə və radikallığa qarşı mübarizədə Komitənin fəaliyyəti barədə məlumat verib.

Azərbaycan əhalisinin 96 faizinin İslam dininə etiqad etdiyini diqqətə çatdıran Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, onların dilinə, dininə, mədəniyyətinə xalqımızın daim hörmətlə yanaşdığını, dövlət tərəfindən mütəmadi olaraq İslam və qeyri-islam dini icmalarına maliyyə yardımı göstərildiyini vurğulayıb.

Dövlət Komitəsinin sədri tolerantlığın Azərbaycan xalqının ruhunda olduğunu deyərək bu dəyərin ölkəmizin siyasi və ictimai həyatında da özünü göstərdiyini bildirib. O qeyd edib ki, ölkəmizdə yəhudi sinaqoqları, pravoslav, katolik və lüteran kilsələri fəaliyyət göstərir, həmçinin Bakıda erməni kilsəsi mövcuddur.

Komitə sədri həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində multikulturalizmin Azərbaycanın dövlət siyasətinə və həyat tərzinə, tolerantlığın isə xalqımız üçün yüksək mədəni dəyərə çevrildiyini bildirib. O vurğulayıb ki, bu gün Prezident İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunmasına yönəlmiş çoxşaxəli siyasətində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

Mübariz Qurbanlı ölkəmizin tolerantlıq modelinin dünyada təbliğ olunması üçün Heydər Əliyev Fondu və onun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlərdən, Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi töhfələrdən danışıb.

Komitə sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi bölgədə sülhün təmin olunmasına öz töhfəsini verəcəyinə ümidvar olduğunu da diqqətə çatdırıb.

Xanım Oreliya Buşez ölkəmizdə dövlət-din, konfessiyalararası münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini, nümunəvi multikultural və tolerant mühitin mövcud olduğunu bildirib, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələsində Fransanın da maraqlı olduğunu önə çəkib. O, Azərbaycanda dini durumun sabit olduğunu qeyd edərək ölkəmizdəki multikultural və tolerant ənənələrin öyrənilməsində maraqlı olduqlarını deyib. Səfir xanım Oreliya Buşez ATƏT-in Minsk qrupunun həmsədri olaraq Fransa dövlətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə daim dəstək verdiyini söyləyib.

Qonaq səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

# Mübariz Qurbanlı: "İŞİD ilə FETÖ-nü birləşdirən "ortaq dəyər"lər var"

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Report"a müsahibəsi***

**- Mübariz müəllim, Türkiyə Respublikasına səfəriniz çərçivəsində baş tutan görüşlərdə daha çox hansı məsələlər müzakirə olundu?**

- Oktyabrın 9-11-i tarixlərində "Avrasiyada İslam: din istismarına qarşı birlik, dayanışma və gələcək perspektivi" mövzusunda keçirilən Zirvə toplantısına Türkiyənin Diyanət İşləri başqanı Mehmet Görmezin dəvəti ilə qatılmışdıq. Səfər çərçivəsində rəsmi görüşlər nəzərdə tutulmamışdı. Səfərdə məqsəd bu regionda İslamın gələcəyi və dini istismar edən hərəkətlər, dini təhsil verən qurumlar, qlobal təhdidlər və şiddət təhlükəsi - İŞİD, qlobal təhlükə kimi FETÖ-nün Avrasiyaya təsirləri, dini istismarın qarşısının alınması yolları və bu kimi digər məsələlərlə bağlı fikir mübadiləsi aparmaq idi.

İki gün ərzində edilən çıxışlar və aparılan müzakirələr göstərdi ki, bütün iştirakçı ölkələr bu kimi məsələlərə qarşı prinsipial mövqedədirlər və birgə mübarizənin tərəfdarıdırlar.

Xüsusi vurğulanmalı məqam odur ki, çıxışlarda müsəlman xalqları arasında dostluğun möhkəmləndirilməsinin və dünyadakı münaqişələrin həllinin, müsəlman dünyasına qarşı ayrı-seçkiliyin, o cümlədən Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tezliklə aradan qaldırılmasının vacibliyi bir daha vurğulandı, bu qarşıdurmaların başlıca səbəbinin beynəlxalq aləmdəki ikili standartlar olduğu diqqətə çatdırıldı. Qeyd olundu ki, xalqımıza qarşı Xocalı soyqırımının törədilməsi, təcavüzkar Ermənistanın ölkəmizdə həyata keçirdiyi terror aktları nəticəsində günahsız insanların qanının axıdılması çox ciddi narahatedici mövzudur.

Həmçinin müasir dünyada yaşanan miqrant faciələri, özünü demokratiya və insan hüquqlarının təəssübkeşi kimi təqdim edən Qərbdə miqrantlar arasında müsəlman, qeyri-müsəlman ayrı-seçkiliyinin aparılması kimi aktual problemlər də müzakirə edildi.



Fikrimcə, region dövlətlər arasında birgə əməkdaşlığın möhkəmləndirilməsi baxımından bu kimi səmərəli tədbirin keçirilməsi təqdirəlayiqdir.

**- FETÖ-yə qarşı mübarizə mövzusunda daha çox hansı məsələlər vurğulandı?**

- Prezident Rəcəb Tayyib Ərdoğan, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə və digər natiqlər FETÖ-nün müasir dövrün ən təhlükəli terror təşkilatlarından biri olduğunu vurğuladılar. Tədbirdə iştirak edən nümayəndə heyəti olaraq dövlətimizin, Prezident cənab İlham Əliyevin birmənalı mövqeyini bir daha dilə gətirərək qardaş Türkiyədə baş verən bütün terror hadisələrini, o cümlədən 15 iyul dövlət çevrilişi cəhdini qətiyyətlə pislədik, bir sıra ölkələrin qərəzli münasibətinə baxmayaraq, türk xalqının Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşməklə tarixin daha bir ağır sınağından alnıaçıq çıxdığını diqqətə çatdırdıq.

Azərbaycan bütün hallarda terrora, o cümlədən İŞİD və FETÖ kimi terror təşkilatlarının fəaliyyətinə qarşı öz etirazını hər zaman sərgiləyib və bundan sonra da sərgiləyəcək. Dövlətimizin daim haqq-ədalət tərəfdarı olacağını vurğuladıq.

Prezident cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, terror ümumbəşəri bəladır və ölkəmiz, hansı ad altında fəaliyyət göstərməsindən asılı olmayaraq, terrorun bütün formalarına qarşı mübarizədə birgə əməkdaşlığın tərəfdarıdır. Türkiyə digər bütün sahələrdə olduğu kimi, bu məsələdə də Azərbaycanın əsas tərəfdaşıdır.

**- Sizcə, FETÖ tərəfdarları vaxtilə Azərbaycanda daha çox hansı sahələrdə fəaliyyət göstəriblər?**

- Azərbaycanda bu təşkilatın müəyyən uzantıları ola bilər, ancaq onun burada güclü ideoloji dayaqları yoxdur. Dövlət müstəqilliyimizi bərpa etdiyimiz ilk illərdə yaranmış xaotik vəziyyətdən istifadə edərək buraya ayaq açmışdılar.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da ilk işləri təhsil sektoruna nüfuz etmək olmuşdu. Burada lisey, universitet açmışdılar. Sovet sistemindən qalma təhsillə müqayisədə, daha yaxşı təhsil verdiklərinə görə rahat fəaliyyət göstərə bilirdilər. Amma dövlətimiz gücləndikcə digər radikal cərəyanlar kimi onların da qarşısının alınması istiqamətində işlərə başladı. 2009-cu ildən Fətullah Gülənə və nurçulara məxsus ədəbiyyatların, video və audio materialların Azərbaycana gətirilməsi, yayılması məqsədəuyğun sayılmadı.

Əlbəttə, biz həmin liseyi, həmin universiteti bitirənlərin hamısının FETÖ ideologiyasının daşıyıcısı hesab edilməsinin tərəfdarı deyilik. Həmin təhsil ocaqlarının vətənini, dövlətini sevən bir sıra məzunları olub və bu gün də dövlət quruculuğunda aktiv iştirak edirlər. Birmənalı şəkildə deyə bilərəm ki, FETÖ-nün dinlə heç bir əlaqəsi yoxdur, o, dini təşkilat deyil, din adı ilə maskalanmış siyasi təşkilatdır. Azərbaycanda bu və ya digər formada Fətullah Gülənin "ideologiyası"nı daşıyanların aşkara çıxarılması, onların qarşısının alınması istiqamətində hüquq-mühafizə orqanlarımız gərgin və uğurlu fəaliyyət göstərirlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi isə bu mübarizəni dini maarifləndirmə yolu ilə aparır.

**- Bir neçə ay əvvəl Türkiyə mətbuatında Azərbaycanda 3 mindən çox "İşıq evi"nin olması barədəiddia yer alıb. Bu, nə qədər realdır?**

- Açığı, bu rəqəmin haradan götürüldüyü, kimə istinad edildiyini bilmirəm, amma hesab edirəm ki, çox şişirdilmiş informasiyadır. Bu məsələ tam nəzarətdədir və müəyyən tədbirlər həyata keçirilir.

**- Mübariz müəllim, Azərbaycandan Suriyaya döyüşməyə gedənlərlə FETÖ-nün təşkilatlanmasına xidmət edənlər arasında hər hansısa bir bağlılıq ola bilərmi?**

*(Davamı səh. 7)*

# Qafqaz Müsəlmanları İdarəsinin sədri İordaniya Kralı ilə görüşüb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Al əl-Beyt İslam Fikri Akademiyasının Əmmanda keçirilən XVII konfransında iştirakı çərçivəsində oktyabrın 24-də İordaniya Kralı Əlahəzrət II Abdullah ilə görüşüb.

Görüşdə Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını İordaniya Kralına çatdırıb.

Kral II Abdullah Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycan və İordaniyanın dost, qardaş ölkələr olduğu bir daha vurğulanıb, ikitərəfli əlaqələrimizin daima inkişafda olacağına əminlik ifadə edilib.

Görüşdə Al əl-Beyt İslam Fikri Akademiyasının rəhbəri, İordaniya Kralının dini və mədəni məsələlər üzrə müşaviri Əmir Qazi bin Məhəmməd və konfransa dəvət olunmuş bir qrup nümayəndə iştirak edib.

Qeyd edək ki, Şeyxülislam Allahşükür Paşazadə Akademiyanın fəaliyyətinə verdiyi töhfələrə görə Kral II Abdullah tərəfindən 2007-ci ildə İordaniyanın ali dövlət mükafatı – I dərəcəli Kral Hüseyn ordeni ilə təltif olunub.



# Mübariz Qurbanlı: “İŞİD ilə FETÖ-nü birləşdirən “ortaq dəyər”lər var”

## *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının “Report”a müsahibəsi*

*(Əvvəli səh. 6)*

- Yuxarıda da qeyd etdiyim kimi, Azərbaycan dövləti hansı ad altında fəaliyyət göstərməsindən asılı olmayaraq, bütün terror təşkilatlarını lənətləyir və onlara qarşı mübarizə aparır. Bilirsiniz, terrorçunun əynində istər kostyum olsun, istər səhra döyüşçüsü uniforması, onun milliyyəti, iqri, cinsi olmur, əlində istər silah olsun, istərsə də qələm və s. – heç bir fərqi yoxdur. Terrorçu terrorçudur, onun qiyafəsi, xarici görünüşü deyil, mənsub olduğu mənhus dünyagörüşüdür. Və biz terrorizmi loyal və radikal qruplara bölmürük. Çünki yekunda hər ikisi cəmiyyət üçün, dövlət üçün, bəşəriyyət üçün təhdiddir. Türkiyədə baş verən 15 iyul hadisələri nümunəsində baxsaq, deyə bilərik ki, İŞİD zahirdə də açıq təhlükə kimi görünürsə, açıq şəkildə pozuculuq fəaliyyəti ilə məşğuldursa, FETÖ dövlətin müxtəlif strukturlarına gizli şəkildə yerləşdirilmiş saatlı bomba kimidir, istədikləri vaxt, yaxud əllərinə düşən ilk fürsətdəcə həmin bombanı partlada bilərlər. Yəni yekun olaraq İŞİD ilə FETÖ-nü birləşdirən “ortaq dəyər”lər var: pozuculuq, anarxiya və terror.

**- Cəmiyyətdə qarışıqlıq, fikir ayrılığı yaratmaq istəyən qüvvələrin Məhərrəm ayında fəallaşmasından danışmaq olarmı?**

- Məhərrəm ayı radikal düşüncəli qrupların və onlara xidmət edənlərin xüsusi fəallıq göstərməyə çalışdıqları aylardan biridir. Ancaq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirləri, Qafqaz Müsəlmanları İdarəsinin səmərəli fəaliyyəti, yerli icra strukturları və hüquq-mühafizə orqanlarımızın fədakar əməyi sayəsində builki Aşura mərasimlərinin sakit məcrada keçməsi bir daha göstərdi ki, radikalizmin Azərbaycanda heç bir sosial dayağı yoxdur və olmayacaq da. Kimsə qanunvericiliyə zidd addım atırsa, cəmiyyətdə pozuculuq fəaliyyəti ilə məşğuldursa, qanun qarşısında cavab verir və verəcək də.

**- Azərbaycanda din pərdəsi altında müxtəlif pozucu fəaliyyətlərlə məşğul olma hallarına daha çox hansı bölgələrdə rast gəlinir?**

- Biz bu cür bölgü aparılmasının tərəfdarı deyilik. Biz bu kimi məsələlərə kompleks yanaşır və fəaliyyətmizdə də bunu əsas tuturuq. Əks halda, radikallar bir bölgəyə xüsusi diqqətin, nəzarətin olmasından istifadə edib, başqa bölgələrdə möhkəmlənə bilərlər.

**- Komitə gənc nəslin dini sahədə doğru maarifləndirilməsinə böyük əhəmiyyət verir. Bu sahədəmaarifləndirmə tədbirlərindən əlavə gənc nəslə orta və ali məktəblərdə sağlam dini biliklərin lazımi səviyyədə verilməsi məsələsi yaxın gələcəkdə müsbət həllini tapacaqmı?**

- Hazırda orta məktəblərimizdə "Həyat bilgisi" adlı fənn tədris olunur və dinlər haqqında müəyyən məlumatı əhatə edir. Bu məsələ ilə bağlı Təhsil Nazirliyinin mütəxəssisləri ilə söhbətlərimizdən belə bir nəticəyə gəlmişik ki, həmin dərslikdə məlumatlar genişləndirilsin.Yuxarı sinif şagirdləri üçün isə dünya dinləri, mədəniyyətləri haqqında, o cümlədən hər bir dindəki radikal qruplar, cərəyanlar, onları yaradan səbəblər, nəticələri və fəsadları barədə geniş məlumat ala biləcəkləri müəyyən müddətdə fənn və ya kurs keçirilə bilər. Ali məktəblərin tədris proqramına isə bu kimi fənlərin salınmasına ehtiyac duyulmur.

Əlbəttə, orta məktəblərlə bağlı söylədiklərim Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsində həll olunan məsələ deyil. Bunlar təkliflərdir və mütəxəssislər həll etməlidirlər. Məndə olan məlumata görə, Təhsil Nazirliyində də bununla bağlı fikir mübadilələri aparılır.

**- Hansı şəhər və rayonlarda mədrəsələr açılacaq?**

- Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdə bir çox gənclərimiz ölkədə müvafiq dini təhsil ocaqları olmadığı üçün təhsil almaq üçün xarici ölkələrə üz tutdular. Məzun olduqdan sonra vətənə qayıtdıqda isə bəlli oldu ki, bir çoxu bir müddət oxuduqları ölkələrin mənimsədikləri həyat tərzini, dünyagörüşünü, hətta dünyəvi məsələlərə baxış tərzini mənimsəyiblər və burada da eyni sistemin qurulmasında maraqlıdırlar.

Təbii ki, dövlətimiz bu kimi insanların məscidlərə, digər ibadət ocaqlarına ayaq açmalarına imkan vermir və bundan sonra da verməyəcək. Çalışırıq, ölkədə savadlı, milli kadr saya biləcəyimiz din xadimlərinin sayı daha çox olsun ki, bu sahədəki problem həll edilsin. Mədrəsələr savadlı din xadimlərinin yetişdirilməsində mühüm rolu olan təhsil ocaqlarıdır. Hazırda ölkədə 3 mədrəsə fəaliyyət göstərir. Sayın artırılması ilə bağlı təkliflər var və bunun üzərində işləyirik.

**- Azərbaycanda dini kimliklə milli kimliyin qarışdırılması problemi mövcuddurmu?**

- “Ümmətçilik, yoxsa millətçilik?” – sualı, demək olar ki, müstəqilliyini qazanmış bütün ölkələrin qarşısına çıxan ilk suallardan biri olub. Hətta 1918-ci ildə Azərbaycan müstəqilliyini elan edəndə də bu məsələ böyük problemə çevrilmişdi. Müasir Azərbaycan isə artıq öz seçimini edib, bizim ideologiyamız bəllidir: Ulu Öndər Heydər Əliyevin banisi olduğu Azərbaycançılıq. Məhz bu məfkurə bizi bir bayraq, bir vətən ətrafında toplayıb.

Azərbaycan çoxkonfessiyalı, çox mədəniyyətli ölkədir və əsrlərdir burada bir çox dinlərin nümayəndələri dinc yanaşı yaşayırlar. Ümummilli Liderimiz Heydər Əliyevin də dediyi kimi, bu, bizim mənəvi sərvətimiz, zənginliyimizdir. Biz məhz bu zənginliyimizlə bir çox dünya ölkələrinə nümunə göstərilirik, sahib olduğumuz bu zənginliyimiz tədqiq edilir, model kimi təqdim olunur. Buna görə də hesab edirəm ki, biz artıq “ümmətçilik, yoxsa millətçilik?” – mərhələsini çoxdan keçmişik və seçimimiz də bəllidir. Mediadan izləyirik, bu sualı gündəmə gətirmək istəyənlər olur zaman-zaman, ancaq biz onu hələ 1993-cü ildə - Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra birdəfəlik kənara qoymuşuq və bundan sonra da aktuallaşdırmaq mənasızdır.Çünki bunlardan birinin seçilməsi digərinin tərəfdarlarını ikinci plana atmaq, dolayısı ilə yuxarıda qeyd etdiyim mənəvi sərvətdən imtina etmək deməkdir. Dini və ya milli kimliyindən asılı olmayaraq, bizim hamımızın bir vətəni var: Azərbaycan.

**- Komitənin strateji planında qızların təhsilə cəlb edilməsi, erkən nikahların qarşısının almasıprobleminin həlli istiqamətində nəzərdə tutulan işlər var. Qız uşaqlarının doğulmadan öldürülməsi - (abort) probleminin həlli istiqamətində maarifləndirici tədbirlər aparmaq nəzərdə tutulurmu?**

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sıx əməkdaşlıq etdiyimiz dövlət qurumlarındandır və biz bu Komitə ilə indiyədək həm paytaxtımızda, həm də bölgələrimizdə müxtəlif mövzularda – erkən nikah, qadın hüquqları və s. - bir sıra tədbirlər həyata keçirmişik. Bu tədbirlər çərçivəsində, şübhəsiz, qeyd etdiyiniz məsələni də gündəmə gətirmişik, bunun yolverilməz olduğunu vurğulamışıq. Bundan başqa, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytında, dövri nəşrlərində (“Cəmiyyət və Din” qəzeti və “Dövlət və Din” jurnalı) mütəmadi olaraq doğulmamış körpənin tələf etdirilməsinin bütün dinlər tərəfindən qadağan olunması, onun həm də mənəvi cəhətdən doğru qərar olmaması ilə bağlı müxtəlif yazılar dərc edilir ki, bu da maarifləndirmənin bir istiqamətidir. Hesab edirəm ki, bu istiqamətdə görülən işlər artıq bəhrəsini verməkdədir, son vaxtlar qız uşaqlarının doğulmadan öldürülməsi faktları kifayət qədər azalıb. Çox istərdik ki, bu hal tamamilə aradan qalxsın.

**- Mübariz müəllim, Azərbaycandan İŞİD-ə ailəsi ilə deyil, təkbaşına qoşulan qadınlar olubmu?**

- Xatırlayırsınızsa, keçən ilədək radikal qruplar öz çirkin təşviqatları ilə bəzi gənclərimizi öz təsir dairələrinə salaraq, digər ölkələrdə din adı altında aparılan döyüşlərə cəlb edirdilər. Təbii ki, gedənlərin məqsədləri fərqli idi. Kimisi maddi maraq naminə getmişdi və gedib real vəziyyəti yerində gördükdən sonra peşman olaraq artıq geri qayıdıb, kimisi də yeniyetməlikdən gəncliyə keçən yaş dövrünü yaşayırdı və yeni macəra axtarırdı. Çox az qismi cihad adı ilə döyüşməyə yollanmışdı ki, onlar da, yuxarıda qeyd etdiyim kimi, radikal qrupların təsiri altına düşənlər idi. Sadəcə olaraq vaxtında anlamayıblar ki, məsələn, Suriyadakı döyüşlərin dinə, azərbaycanlılara heç bir aidiyyəti yoxdur və bu, geosiyasi maraqların toqquşmasıdır.

Dövlət Komitəsi bu sahədə xeyli maarifləndirici iş aparıb və aparmaqdadır. Bilirsiniz ki, Komitənin sifarişi ilə “Fitnə” adlı sənədli film çəkilib. Suriyaya döyüşməyə gedən, sonradan peşman olub qayıdanların və qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb edilənlərin peşmanlığını əks etdirən həmin filmin ölkə boyunca nümayişi keçirilir və çox bəyənilir. Artıq yeni filmin üzərində iş gedir. Analitik təhlillərimiz və müşahidələrimiz göstərir ki, son 1 ildə Azərbaycandan başqa ölkələrdə döyüşməyə bir nəfər də getməyib. Əvvəllər gedənlərdən peşman olub qayıdanlar isə çoxdur. Azərbaycandan digər ölkələrə döyüşməyə gedənlərə mənəvi dəstək verənlər də zərərsizləşdirilib, fəaliyyətlərinin qarşısı tamamilə alınıb. Tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycanda vətəndaşlarımızı başqa ölkələrdəki silahlı birləşmələrə sövq edən, bu yöndə təbliğat aparan məscid yoxdur.

# Azərbaycan nümayəndə heyəti Avrasiya İslam Şurasının Zirvə toplantısında iştirak edib

İstanbuldakı "Dolmabağça" sarayında "Avrasiyada İslam: din istismarına qarşı birlik, həmrəylik və gələcək perspektiv" devizi altında Avrasiya İslam Şurasının IX Zirvə toplantısı işə başlayıb.

Zirvə toplantısında Azərbaycanı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, Milli Məclisin deputatları Cavanşir Paşazadə və Hüseynbala Mirələmov və digər rəsmi şəxslərdən ibarət nümayəndə heyəti təmsil edib.

Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunub, 2016-cı il iyulun 15-də Türkiyədə baş vermiş dövlət çevrilişinə cəhdlə bağlı kadrlar əsasında hazırlanmış film nümayiş olunub.



Zirvənin rəsmi açılışında Prezident Rəcəb Tayyib Ərdoğan, Türkiyənin Diyanət İşləri Başqanı Mehmet Görmez, Baş nazirin müavini Numan Qurtulmuş, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə, Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddin və başqaları çıxış ediblər.

Bütün zəminlərdə münaqişələrin dayandırılmasının, terror aktlarının qarşısının alınmasının, insanlara qarşı kütləvi zor tətbiq edilməsinin müasir dünya qarşısında vacib bir problem olduğunu diqqətə çatdıran Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, dünyada sülhün və əmin-amanlığın bərpa olunması, ədalətin və bərabərliyin qorunması, qaçqınların müvəqqəti yerləşdirilməsi, onların ata-baba yurdlarına qayıtmaları məsələlərində Türkiyənin prinsipial mövqeyi dəyişməz qalır.

Prezident İlham Əliyevin səmimi salamlarını və xeyir-duasını Zirvə toplantısının iştirakçılarına çatdıran Şeyxülislam Allahşükür Paşazadə əminliklə bildirib ki, dörd gün davam edəcək bu tədbirdə dünyada sülhün və sabitliyin bərpasına nail olunması üçün mühüm çağırışlar ediləcək. Türkiyədə törədilən terror aktlarını və 15 iyul dövlət çevrilişi cəhdini qətiyyətlə pisləyən Allahşükür Paşazadə bir sıra dövlətlərin qərəzli mövqeyinə baxmayaraq Türkiyə xalqının Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək tarixin daha bir ağır sınağından alnıaçıq çıxa bildiyini vurğulayıb.

Xalqlar, dinlər və təriqətlər arasında dostluq və qardaşlığın qorunmasının vacibliyindən danışan Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddin son vaxtlar Rusiya-Türkiyə münasibətlərindəki yaxınlaşmadan məmnunluğunu ifadə edib və bildirib ki, bütün bu nailiyyətlər hər iki dövlət başçısının möhkəm siyasi iradəsi nəticəsində gerçəkləşir.

Çıxışlarda müsəlman xalqları arasında dostluğun möhkəmləndirilməsinin və dünyadakı münaqişələrin həllinin, müsəlman dünyasına qarşı ayrı-seçkiliyin, o cümlədən Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tezliklə aradan qaldırılmasının vacibliyi kimi məsələlərdən bəhs olunub.

Rəsmi açılışdan sonra panellər üzrə müzakirələr aparılıb.

Rəsmi açılışda və geniş müzakirə toplantısında çıxış edən Türkiyənin Diyanət İşləri Başqanı Mehmet Görmez Avrasiya İslam Şurasının ötən dövrdəki fəaliyyəti, qarşıda duran vəzifələri, Türkiyənin dini bərabərlik siyasəti, bu ölkənin qarşılaşdığı çətinliklərdən bəhs edib.

Sonra Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Gürcüstan, Moldova və digər ölkələrdən müxtəlif müsəlman dini icmalarının nümayəndələri çıxış ediblər.

Yaxın Şərqdə və digər ölkələrdə yaşanan münaqişələri, o cümlədən Türkiyədə səngimək bilməyən amansız terror aktlarını düşmən qüvvələrin birgə fəaliyyətinin nəticəsi kimi dəyərləndirən Allahşükür Paşazadə diqqətə çatdırıb ki, bütün bu qarşıdurmaların başlıca səbəbi beynəlxalq aləmdəki ikili standartlardır. Azərbaycanın ərazisinin bir hissəsinin təcavüzkar Ermənistan tərəfindən işğal edilməsi, xalqımıza qarşı Xocalı soyqırımının törədilməsi, təcavüzkar Ermənistan tərəfindən ölkəmizdə həyata keçirilən terror aktları nəticəsində axıdılan günahsız insan qanları, müasir dünyada yaşanan miqrant faciələri, özünü demokratiya və insan hüquqlarının təəssübkeşi kimi təqdim edən Avropada miqrantların müsəlman və qeyri-müsəlman ayrı-seçkiliyi ilə qarşılaşması çox ciddi narahatedici amillərdir. Xalqımızın erməni terrorizmindən böyük zərər çəkdiyini, çoxlu sayda insan itkisi ilə qarşılaşdığını bildirən Allahşükür Paşazadə qeyd edib ki, Azərbaycan bütün hallarda terrora, o cümlədən İŞİD və FETÖ kimi terror təşkilatlarının fəaliyyətinə qarşı öz etirazını sərgiləyərək haqq və ədalət tərəfdarıdır.

İslam dininin xalqlarımızın həyatındakı tarixi rolundan bəhs edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, türk xalqları, o cümlədən azərbaycanlılar bu dini qəbul etməklə nəinki daha əhatəli və zəngin bir sivilizasiyaya qoşulub, həm də bu sivilizasiyanın təşəkkülündə, inkişafında, zənginləşməsində mühüm rol oynayıblar. Dövlət müstəqilliyimizi bərpa etdiyimiz zaman cəmi 17 məscid olan ölkəmizdə hazırda 2100-dən çox məscidin fəaliyyət göstərdiyini diqqətə çatdıran komitənin sədri bildirib ki, müstəqilliyini əzmlə qoruyan və gündən-günə möhkəmləndirən Azərbaycan xalqı islami dəyərlərin qorunması istiqamətində böyük irəliləyişə nail olub. Bu, milli-mənəvi və islami dəyərlərimizin qorunması istiqamətində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən böyük siyasətin məntiqi nəticəsidir. Son illər ölkəmizin sürətli inkişafı, beynəlxalq aləmdəki mövqelərinin güclənməsi kimi məsələlərdən söhbət açan M.Qurbanlı bildirib ki, Azərbaycan hökuməti vətəndaşların əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını qətiyyətlə alır və bundan sonra da alacaq. Dindən siyasi məqsədlər üçün istifadəyə çalışan, insanları radikallığa çağıran qüvvələrin fəaliyyətini genişləndirməsinə, xalqımızın yüz illər boyu formalaşmış dözümlülük ənənələrinə xələl gətirməsinə və ölkədəki dini etiqad azadlığından sui-istifadəyə yol verməklə olmaz. Azərbaycan hökuməti dini radikalizm və ekstremizmə qarşı mübarizədə bütün ölkələrlə, xüsusilə qardaş müsəlman ölkələrlə hər cür əməkdaşlığa hazırdır.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev dövlət-din münasibətlərinin tənzimlənməsi, dinin siyasi və qrup maraqlarından uzaq tutulması, dinlər və məzhəblərarası dialoqun təşkili, tolerantlıq mühitinin qorunması, xüsusilə dini maarifləndirmə işinin sağlam və mötəbər qaynaqlar əsasında həyata keçirilməsi və s. istiqamətlərdə Muxtar Respublikada görülən işlər barədə iştirakçılara ətraflı məlumat verib.

Qeyd edək ki, Avrasiya İslam Şurası Türkiyə Diyanət İşləri Başqanlığının təşəbbüsü ilə yaradılıb. Avrasiya regionunda eyni dini dəyərlərə sahib ölkələr arasında din sahəsində əməkdaşlıq əlaqələri qurmaq və ümumi problemləri birgə həll etmək məqsədilə yaradılmış Avrasiya İslam Şurasının Zirvə toplantılarında dinin dünyada sülh və sabitliyin yaranmasında rolu, dinlər və mədəniyyətlərarası əlaqələrin inkişafı, eləcə də dini təhsilin həyata keçirilməsinə dair məsələlər müzakirə edilir.

Zirvə toplantısı oktyabrın 14-də davam etdirilib.

# "Dünyəvi dövlətdə din: Azərbaycan modeli"

**Oktyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Beyləqan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Beyləqan rayonunda "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda tədbir keçirilib.**

Tədbirdə DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Beyləqan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ramiz Əliyev, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov, Dövlət Komitəsinin əməkdaşları Tərxan Paşazadə, Əli Həziyev, icma sədrləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Beyləqan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ramiz Əliyev qeyd edib ki, ölkəmizdə zəngin multikultural və onun tərkib hissəsi olan tolerantlıq ənənələrinin qorunub daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini ekstremizmin fəsadlarından, İslam dünyasında, o cümlədən ölkəmizdə dini ekstremizmin yaranma səbəbləri və dini dəyərlərimizi qorumaqla dini radikalizmlə mübarizə aparmağın üsullarından bəhs edib.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Tərxan Paşazadə, Əli Həziyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı ili məhz "Multikulturalizm ili" elan etməsini Azərbaycandakı tolerant mühit və multikultural ənənəyə hörmətin yüksək olması ilə əlaqədar olduğunu və ölkəmizdə multikultural mühitin dərin tarixi köklərə malik olduğunu bildiriblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb.

* * *

**Oktyabrın 20-də isə eyni mövzuda daha bir tədbir Bərdə rayonu Zərifə Əliyeva adına orta məkəbdə keçirilib.**

Konfransda DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev və Komitənin əməkdaşları, dini icma sədrləri, dindarlar, şəhərin təhsil və mədəniyyət işçiləri, yeniyetmə və gənclər iştirak ediblər.

Konfransı giriş sözü ilə Bərdə Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Eldəniz Səfərov açaraq rayondakı dini durumla bağlı ətraflı məlumat verib.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov çıxışında Dövlət Komitəsinin fə-aliyyəti barədə danışıb, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində ölkəmizin qazandığı təcrübənin dünya dövlətləri tərəfindən öyrənildiyini diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev şöbənin əhatə etdiyi rayon və şəhərlərdə həyata keçirilmiş maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb.

Daha sonra çıxış edən Dövlət Komitəsinin əməkdaşları Əli Həziyev və Tərxan Paşazadə, Bərdə rayon Gənclər və İdman İdarəsinin rəisi Anar Şahbazov, Bərdə şəhər "Cümə" məscidinin axundu Ramazan Hüseynov mövzu ilə bağlı konfrans iştirakçılarına ətraflı məlumat veriblər.

# Bölgələrdə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbirlər keçirilib



**Qəbələdə**

Oktyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qəbələ rayonunda "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayon icra hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Yaşar Nəzirov, rayonda fəaliyyət göstərən dini icma sədrləri, din xadimləri, rayon ağsaqqalları, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov rayondakı dini durum barədə ümumi məlumat verib. Natiq bildirib ki, Qəbələ rayonu Azərbaycanda müxtəlif xalqların, müxtəlif dini konfessiyaların, icmaların birgə yaşadığı ən nümunəvi bölgələrdən biri sayılır. Rayonda alban məbədlərinin, məscidlərin, digər dini ayinlərin icra edildiyi ziyarətgahların mövcud olduğunu və birgə fəaliyyət göstərdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək dövlət-din münasibətlərindən, ölkəmizdə milli-mənəvi və İslami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən bəhs edib. Qeyd edib ki, Azərbaycan tolerant ölkədir və burada bütün dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. Səyyad Salahlı, həmçinin dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları, dünyada baş verən siyasi proseslərin dini radikalizmə təsiri barədə geniş məlumat verib. Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlərdən bəhs edən sədr müavini eyni zamanda gənclərin, ziyalıların və din xadimlərinin dini radikalizmlə mübarizədə fəal olmalarının vacibliyindən söz açıb.

Daha sonra mərkəzi "Cümə" məscidinin naib imamı Saleh Şirinov, Qəmərvan dini icmasının sədri İkram Ziyadov mövzu ətrafında məruzələr ilə çıxış ediblər. Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Ağdaşda**

Oktyabrın 4-də Ağdaş şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağdaş Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə təşkil olunmuş tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşları, idarə və müəssisə rəhbərləri, rayon ictimaiyyəti, dini icma sədrləri, dindarlar, rayonun təhsil, səhiyyə və mədəniyyət işçiləri, eləcə də gənclər iştirak ediblər.

Konfransda çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Sallahlı, DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, Ağdaş RİH-in nümayəndəsi Qabil Həsənov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə nümayəndəsi Əli Məmmədov ölkəmizdə dinlərarası və məzhəblərarası münasibətlərin yüksək səviyyədə qurulduğunu vurğulayıblar. Qeyd olunub ki, hər kəsin dini etiqad azadlığının təmin olunması, dövlətin bu sahədə yürütdüyü uğurlu siyasət sayəsində multikulturalizm və tolerantlıq xalqımızın həyat tərzinə çevrilib və bu, dini radikalizmlə mübarizədə mühüm amildir. Bildirilib ki, dini radikalizmlə mübarizədə dini icmaların rolunu artırmaq, radikalizmin yayılmasının və gənclərin radikal fikirlərin təsiri altına düşməsinin qarşısını almaq üçün birgə fəaliyyət dövrün tələbinə çevrilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Füzulidə**

Oktyabrın 17-də Füzuli Rayon İcra Hakimiyyəti (RİH) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə Horadiz şəhərində keçirilmiş tədbirdə RİH başçısı Alı Alıyev, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, şöbənin və Füzuli Rayon İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşları, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, müharibə veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə Füzuli RİH-in başçısı Alı Alıyev açaraq, rayondakı dini durumla bağlı ətraflı məlumat verib. RİH-in başçısı, həmçinin dövlət-din münasibətlərinə toxunaraq qeyd edib ki,Azərbaycan dövləti hər zaman dinə və dindarlara diqqət və qayğı göstərməkdədir.



Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə həyata keçirilən dini radikalizmlə mübarizə tədbirlərindən danışıb.Səyyad Salahlı çıxışında dövlət-din münasibətlərindən, ölkəmizdə milli-mənəvi və İslami dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən geniş bəhs edib. Dövlət Komitəsi sədrinin birinci müavini gənclərin, ziyalıların və din xadimlərinin, bütövlükdə cəmiyyətin dini radikalizmlə mübarizədə fəal olmalarının vacib olduğunu vurğulayıb.

Sonda çıxış edən tədbir iştirakçıları dindarlara göstərdiyi diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə təşəkkürlərini bildiriblər.

**Ağdamda**

Oktyabrın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ağdam Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə RİH başçısı Raqub Məmmədov, DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, şöbənin və RİH başçısı Aparatının əməkdaşları, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, müharibə veteranları, rayon dindarları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Ağdam RİH-in başçısı Raqub Məmmədov mövzu barədə geniş məlumat verib, ölkəmizdə dini icmalara göstərdiyi qayğıya və dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinə görə rayon ictimaiyyəti adından Prezident cənab İlham Əliyevə təşəkkürünü bildirib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmlə mübarizə istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.S.Salahlı qeyd edib ki, bəzi qruplar öz şəxsi mənafeləri naminə, hətta cəmiyyətin gələcəyini təhlükə altına salaraq insanları radikalizmə sürükləyən fəaliyyətə can atırlar. DQİDK sədrinin birinci müavini onu da vurğulayıb ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, o cümlədən dövlətin digər müvafiq qurumları bu qruplara qarşı mübarizə aparmaqdadır.S.Salahlı dini radikalizmlə mübarizədə din xadimlərini və dini icmaları da fəal olmağa çağırıb.

Tədbirdə, həmçinin Ağdam rayonunun ziyalıları adından Hüseyn Bayramov, Ağdam rayon "Xındırıstan kənd məscidi" dini icmasının sədri və axundu Barat Bağırov və Ağdam rayon "Seyid Lazım Ağa" ziyarətgahının axundu Seyid Yusif Ağa çıxış ediblər.

## "Dinimiz mənəviyyatımızdır" mövzusunda növbəti tədbirlər keçirilib



Ədliyyə Nazirliyinin Penitensiar xidməti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə cəzaçəkmə müəssisələrində dini maarifləndirmə mövzusunda tədbirləri davam etdirir.

Növbəti tədbirlər "Dinimiz mənəviyyatımızdır" mövzusunda 2, 9 və 17 saylı cəzaçəkmə müəssisələrində keçirilib.

Tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsul əməkdaşları iştirak ediblər.

Tədbirlər zamanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmin yaranması səbəblərindən, onun yaratdığı fəsadlardan, ölkəmizdə dini radikalizmə qarşı aparılan mübarizədən danışıb. O qeyd edib ki, ölkəmizdə vicdan azadlığı ilə bağlı hüquqlar bərpa olunub, məscidlərlə yanaşı, kilsə və sinaqoqların fəaliyyətinə rəsmən icazə verilib, ölkə Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu göstərilib, insan şəxsiyyətinə və insanlıq prinsiplərinə zidd dini baxışlar qadağan edilib.

Komitəsi sədrinin birinci müavini məhkumlarla vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirici söhbətlər aparıb, əxlaq və fəzilət, dinin əmr və qadağaları barədə geniş məlumat verib, həmçinin Azərbaycanın tolerantlıq və multikulturalizm modelinin dünya üçün nümunə olduğunu onların diqqətinə çatdırıb.

# Şəmkir rayonunda “Dini radikalizmlə mübarizə yolları” mövzusunda tədbir keçirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə DSX-nin Şəmkir rayonundakı N saylı hərbi hissəsində “Dini radikalizmlə mübarizə yolları” mövzusunda tədbir keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə iştirakçılara geniş məlumat verib. O, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən “Multikulturalizm ili” çərçivəsində görülən işlərdən danışıb.

Sədr müavini dini radikalizm və onun fəsadları barədə iştirakçılara məlumat verib. O, bu cür halların yaranma səbəbləri və təbliğatına qarşı mübarizə yollarından da geniş bəhs edib. Səyavuş Heydərov bildirib ki, radikalizmi doğuran başlıca səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq, dini bilgilərin zəif olmasıdır. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir. O, İslam dinində şəhidlik, Vətən anlayışı, dinimizin Vətən uğrunda mübarizəyə verdiyi dəyərlər barədə iştirakçılara geniş məruzə edib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı” məscidində görüş keçirilib



**Oktyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Sabunçu rayonu Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı” məscidində dini icma üzvləri və qəsəbə dindarları ilə görüş keçirilib.**

Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, eləcə də Sabunçu Rayon İcra Hakimiyyəti və yerli hüquq-mühafizə orqanlarının rəhbərliyi iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov çıxış edərək Azərbaycandakı nümunəvi tolerant və multikultural mühit, eyni zamanda mövcud dini vəziyyət, dövlətin dini etiqad azadlığının təminatı üzrə gördüyü işlər haqqında məlumat verib. O bildirib ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub, dövlət tərəfindən İslam və qeyri-islam dini icmalara daim diqqət və qayğı göstərilir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri hazırda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etməkdədir. Ölkəmizdə təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsi bunun əyani sübutudur. Məhərrəm ayının başlanmasından danışan sədr müavini bununla əlaqədar bütün məscidlərdə, o cümlədən “Rəhimə xanım ziyarətgahı”nda da əzadarlıq tədbirlərinin, anım mərasimlərinin QMİ-nin Qazılar Şurasının bununla bağlı verdiyi fətvaya uyğun, o cümlədən, qanunvericilik çərçivəsində həyata keçiriləcəyinə əmin olduğunu bildirib.

Səyavuş Heydərov sosial dayağı olmayan radikal meyilli dairələrə qarşı mübarizə ilə bağlı görülən ardıcıl, məqsədyönlü maarifləndirmə tədbirləri barədə də iştirakçılara ətraflı məlumat verib.

“Rəhimə xanım ziyarətgahı” məscidi dini icmasının sədri Musa Qasımov, qəsəbə ağsaqqalları Hacıağa Nuriyev və Seyfulla Əlizadə çıxışlarında dindarların dövlətin qayğısı və diqqəti ilə əhatələndiyini qeyd edərək, Nardaran qəsəbəsində aparılan abadlıq-quruculuq işlərinə görə dövlət başçısı və aidiyyəti qurumlara öz minnətdarlıqlarını bildiriblər. Ötən il Nardaran qəsəbəsində baş vermiş xoşagəlməz hadisələrə toxunan çıxışçılar qəsəbə sakinlərinin bu proseslərdə iştirak etmədiyini, radikal dini dairələrin kənardan idarə olunduğunu vurğulayıblar. Məhərrəm ayı ilə əlaqədar olaraq isə bütün ölkə üzrə olduğu kimi, Nardaran qəsəbəsində də əzadarlıq tədbirlərinin qanunvericilik çərçivəsində və nümunəvi şəkildə təşkil ediləcəyini qeyd ediblər.

Qəsəbənin dini icmasının üzvləri dinə aidiyyəti olmayan bəzi qrupların Nardaran camaatı adından danışmalarını yolverilməz hesab ediblər.

# “Fitnə” filmi nümayiş etdirilib

Oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş “Fitnə” filmi nümayiş etdirilib. Film nümayiş etdilmədən əvvəl dini radikalizmlə mübarizə yollarına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə DQDİK-nın şöbə müdirləri Oqtay Hüseynov, Əliheydər Zülfüqarov, DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai – siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru, professor Əli Allahverdiyev, filialın müəllim, işçi və tələbə heyəti iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan filialın direktoru Əli Allahverdiyev bildirib ki, rəhbərlik etdiyi təhsil müəssisəsində mütəmadi olaraq tələbələrlə dini radikalizmlə mübarizə yollarına həsr olunmuş söhbətlər aparılır. O, qeyd edib ki, tələbələr arasında dini fanatizmə və radikalizmə meyillənənlərə rast gəlinmir. Filialın tələbələri müasir biliklərə yiyələnməklə gələcək nəsillərə yeni töhfələr vermək fikrindədirlər.

DQİDK-nın Dini Qurumlarla İş şöbəsinin müdiri Əliheydər Zülfüqarov “Fitnə” filmi haqqında məlumat verərək bildirib ki, filmin çəkilməsinin əsas məqsədi gənclərlə maarifçilik işi aparmaqdır. Onlara İslam dinini olduğu kimi öyrənməyə kömək etmək, aldadılaraq dindən uzaqlaşdırmaqla din adı altında başqa-başqa dövlətlərin qanunsuz silahlı birləşmələrinin tərkibində vuruşmağa cəlb olunmasının qarşısını almaqdır.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev çıxış edərək vurğulayıb ki, Azərbaycanlı gənc fəxr etməlidir ki, bu gün onun təmsil etdiyi ölkənin multikulturalizm ənənəsi Avropanın bir sıra dövlətlərinin universitetlərində fənn kimi tədris olunur. Azərbaycan dövləti də gənclərin sağlam və bilikli böyümələri və yetişmələri üçün əlindən gələni edir.

Quba Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai – siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov çıxışında bu cür maarifləndirmə tədbirlərinin xüsusi əhəmiyyətini qeyd edib. O, bildirib ki, Quba Rayon İcra Hakimiyyəti Dövlət Komitəsi ilə son bir ayda rayonun kəndlərinə səfərlər edərək yerli sakinlərlə görüşüb və maarifləndirmə işləri aparıblar. Daha sonra film nümayiş etdirilib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

* * *

Oktyabrın 25-də film Sumqayıt Dövlət Universitetində nümayiş olunub.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərov, Sumqayıt Dövlət Universitetinin prorektoru Nizami Namazov, universitetin müəllim və tələbələri iştirak ediblər.

N.Namazov açaraq bu cür filmlərin gənclərin maarifləndirilməsi istiqamətindəki əhəmiyyətindən danışıb. Prorektor



gənclərin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün bu tipli maarifləndirici filmlərin çəkilməsinin və istiqamətləndirici tədbirlərin daha çox keçirilməsinin önəmini qeyd edib. O, gəncləri radikal dini cərəyanların təsirindən uzaq tutmaq, onlara dini, milli-mənəvi dəyərləri aşılamaq məqsədi ilə DQİDK tərəfindən həyata keçirilən maarifləndirici tədbirləri təqdirəlayiq hesab etdiyini bildirib.

Sonra çıxış edən DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərov dövlət-din münasibətlərindən, Dövlət Komitəsinin dini etiqad azadlığının təminatı sahəsində gördüyü işlərdən bəhs edib. O bildirib ki, Dövlət Komitəsi “Fitnə” adlı sənədli filmi dini radikalizmlə mübarizə tədbirlərinin daha məqsədyönlü aparılması istiqamətində hazırlayıb və filmdə dini radikalizmin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırılması məqsədilə hazırlayıb. Filmdə dini radikalizmin qurbanı olmuş insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə açıqlanır.

Filmin nümayişindən sonra film ətrafında müzakirələr aparılıb.

* * *

Oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin və Zəngilan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Binəqədi rayonunda məcburi köçkünlərin kompakt məskunlaşdığı yaşayış kompleksi ərazisində yerləşən 4 saylı Zəngilan rayon tam orta məktəbində “Fitnə” sənədli filminin təqdimatı ilə bağlı tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdir müavini Yalçın Abdullayev, Zəngilan RİH-in nümayəndəsi Şənlik Əliyev, məktəbin direktoru Cəbrayıl Şıxəliyev, müəllimlər və şagirdlər iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Zəngilan RİH-in nümayəndəsi Şənlik Əliyev ölkəmizdə mövcud olan dövlət-din münasibətlərinə toxunuraq, multikultural dəyərlərin qorunub saxlanıldığından və bu dəyərlərin dövlət siyasəti kimi həyata keçirilərək daha da möhkəmləndiyindən danışıb.z

DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdir müavini Yalçın Abdullayev zərərli dini cərəyanlar haqqında danışıb. O qeyd edib ki, həyata keçirilən din siyasəti, aparılan maarifləndirmə işləri nəticəsində radikal dini cərəyanlar özlərinə cəmiyyət içərisində yer tapa bilmirlər. Yalçın Abdullayev deyib ki, gənclərin üzərinə düşən əsas vəzifə yüksək savad almaq və cəmiyyət üçün faydalı vətəndaş olmaqdır.

Daha sonra “Fitnə” filmi nümayiş olunub. Nümayişdən sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Bölgələrdə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfranslar keçirilib

**Azərbaycanda multikulturalizm dövlət siyasətinin önəmli istiqamətlərindən birinə çevrilib. Ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb.**

Bu fikir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Oğuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə oktyabrın 7-də Oğuz şəhərində keçirilən "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfransda səsləndirilib.

Konfransda dini işlər üzrə komissiyaların üzvləri, ziyalılar, gənclər, təhsil işçiləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri Oğuz Rayon İcra Hakimiyyətinin məsul nümayəndəsi Ayaz Ağayev açaraq, bir çox xalqların nümayəndələrinin yaşadığı Oğuz rayonunun həmişə multikultural və tolerant dəyərləri ilə tanındığını bildirib, konfransın işinə uğurlar arzulayıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov konfransın əsas məqsədinin Azərbaycandakı dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təşviqinə nail olmaq məqsədi daşıdığını diqqətə çatdırıb. Vurğulanıb ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Müxtəlif dini inanclara malik insanların əsrlər boyu sülh şəraitində yaşadığı Azərbaycan dünyaya nümunə olacaq bir ölkədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib.

G.İsmayılov ölkəmizin zəngin multikultural mühitinə əsas təhlükə törədən potensial və real təhdidlərə diqqət çəkərək, dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən danışıb. Bildirilib ki, məzhəb müxtəlifliyi şəraitində multikultural cəmiyyətlərdə, xüsusilə İslam dininə mənsub toplumlarda ənənəvi İslamın zəifləməsi fonunda xarici təsirlərin güclənməsi ehtimalı var. Dini radikalizmin güclənməsi dinin siyasiləşdirilməsinə, tolerantlığın zəifləməsi ilə məzhəbçiliyin güclənməsinə, dini kimliyin milli kimliyə qarşı qoyulmasına, cəmiyyətdə qütbləşmənin və sosial təbəqələşmənin yaranmasına aparıb çıxara bilər. Belə cəmiyyətlərdə qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyillərinin artması, dünyəvi təhsilə qarşı çıxışların müşahidə olunması xarakterik haldır.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov çıxışında zərərli dini cərəyanların əsas fəaliyyət metodlarına toxunub.

Tədbirin ikinci hissəsi diskussiya şəraitində keçib, milli-mənəvi dəyərlərimizin qorunması, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri, qloballaşma şəraitində müasirləşmənin milli özünəməxsusluğun itməsi hesabına baş verməməsi üçün görülən işlər müzakirə edilib. "Dini, yoxsa milli kimlik?!", "Dindar olub müasir olmaq mümkündürmü?", "Dindar gənclik dünyəvi gənclikdən nə ilə fərqlənməlidir?" sualları ətrafında gənclərin fikirləri dinlənilib.

* * *

Eyni mövzuda daha bir tədbir oktyabrın 20-də Tərtər rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Tərtər Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elvin Umudov, rayonun axundu Sadiq Cəfərov, eləcə də bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərliyi, dini işlər üzrə komissiyanın üzvləri, YAP rayon təşkilatının rəhbərliyi, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Tərtər Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elvin Umudov Azərbaycanda multikulturalizmin dövlət siyasətinin önəmli istiqamətlərindən birinə çevrildiyini vurğulayıb. O bildirib ki, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb, dövlət tərəfindən bütün dini konfessiyalara diqqət və qayğı göstərilir, mütəmadi olaraq maliyyə vəsaiti ayrılır.

DQİDK sədrinin müavini Gündüz İsmayılov konfransın Azərbaycandakı dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təşviqinə nail olmaq məqsədi daşıdığını diqqətə çatdırıb. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən multikulturalizm siyasəti milli, ideoloji, ictimai təhlükəsizliyimizin əsas elementidir. Multikulturalizm və tolerantlığın tarixən azərbaycanlıların həyat tərzi olduğunu vurğulayan Gündüz İsmayılov müxtəlif dini inanclara malik insanların əsrlər boyu sülh şəraitində yaşadığı Azərbaycanın dünyaya nümunə olacaq bir ölkə olduğunu deyib.

Sədr müavini multikultural cəmiyyətə əsas təhdid hesab olunan dini radikalizm və ekstremizmin fəsadlarından və bu kimi halların qarşısının alınması yollarından bəhs edib. Dini radikalizmlə mübarizə çərçivəsində görülən işlər haqqında məlumat verən Gündüz İsmayılov bununla bağlı aparılan mübarizə tədbirlərindən danışıb.

Daha sonra rayonun axundu Sadiq Cəfərov çıxış edərək dini radikalizmin fəsadlarından, radikalizm əleyhinə aparılan dini maarifçilik işinin əhəmiyyətindən söz açıb.

Konfransın sonunda iştirakçıların sualları cavablandırılıb.

## "Yahoo News": Roma Papası Azərbaycanda mədəni müxtəlifliyi və tolerantlığı alqışlayır


YAHOO! NEWS
Search
Sign in
News Home | US | World | Politics | Tech | Science | Odd News | ABC News | Yahoo Originals | Follow Us

**Pope Francis Hails Azerbaijan's Diversity and Tolerance**

October 3, 2016

WASHINGTON, Oct. 3, 2016 /PRNewswire-USNewswire/ -- Pope Francis concluded his papal trip to the Caucasus by visiting the Republic of Azerbaijan to highlight the long-standing harmony among different faiths and communities in Azerbaijan.

During his visit, Pope Francis served a Holy Mass at the Church of the Immaculate Conception in Baku for the Catholic community of Azerbaijan and joined President Ilham Aliyev for a public address at the Heydar Aliyev Center. The Pontiff also met with SheikhulIslam Pashazade, the Chairman of the Caucasus Muslims' Board as well as with Jewish and Christian leaders for an inter-faith conversation at the Heydar Mosque.

Speaking in Baku, Pope Francis emphasized his particular pleasure "with the cordial

NATIONAL GEOGRAPHIC
Little Passports World Edition - One...
Little Passports is a child's ticket to an exciting global adventure and a life-long ...
SHOP NOW

What to Read Next

"Yahoo News" xəbərlər portalı Azərbaycanın ABŞ-dakı səfirliyinin "Roma Papası Azərbaycanda mədəni müxtəlifliyi və tolerantlığı alqışlayır" sərlövhəli mətbuat üçün məlumatını açıqlayıb. Roma Papası Bakıdakı Katolik Kilsəsində Azərbaycanın katolik icması üçün messa – dini mərasim keçirib, Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Heydər Əliyev Mərkəzində çıxış edib. O, Heydər Məscidində Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, yəhudi və xristian icmalarının başçıları ilə də görüşüb. Roma Papası öz bəyanatlarında vurğulayıb ki, Azərbaycan mədəniyyətinin "incəlikləri və zənginliyi" onu valeh edib. Papa Azərbaycanı "gülərüzlüyü və qonaqpərvərliyi ilə fərqlənən ölkə" adlandırıb.

Məlumatda bildirilir ki, Roma Papasının ölkəmizə səfərini tarixi adlandıran Prezident İlham Əliyev bütün vətəndaşlar üçün bərabər imkanlar yaradan dünyəvi və müasir cəmiyyət ənənələrinin qorunub saxlanılmasına Azərbaycanın sadiqliyini bir daha təsdiq edib. Azərbaycan Prezidenti Heydər Əliyev Mərkəzində çıxışında deyib: "Azərbaycanda əsrlər boyu bütün dinlərin, xalqların nümayəndələri sülh, ləyaqət, mehribanlıq şəraitində yaşamışlar". Azərbaycanın Şərq ilə Qərb arasında həmişə körpü rolunu oynadığını diqqətə çatdıran dövlətimizin başçısı vurğulayıb: "Bu, həm coğrafi, eyni zamanda, mənəvi körpüdür".

Roma Papası Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının dəfn edildiyi Şəhidlər xiyabanında olub.

Sonda məlumatda bildirilir ki, II İohann Pavel Bakıya səfər edən ilk Roma Papası olub. Onun bu səfəri 2002-ci ilin mayında baş tutub.

## "Egemen Qazaxıstan" qəzeti: Bakı multikulturalizmin paytaxtına çevrilib

Qazaxıstanın rəsmi dövlət qəzeti olan "Egemen Qazaxıstan"da "Bakı multikulturalizmin paytaxtına çevrilib" adlı məqalə dərc edilib. Məqalədə bildirilir ki, bəşəriyyətin çətin sınaqlar qarşısında qaldığı, silahlı münaqişələrin, beynəlxalq terrorizmin tüğyan etdiyi, insanların öz yurdlarını kütləvi şəkildə tərk etdikləri bir zamanda humanitar məsələlərin ən yüksək səviyyədə müzakirəsinə ciddi ehtiyac yaranıb. Bu baxımdan Azərbaycanın paytaxtı Bakı şəhərinin ev sahibliyi etdiyi V Humanitar Forum çox böyük əhəmiyyətə malikdir. Artıq ənənəvi olaraq keçirilən Forum siyasi və mədəni həyatın mühüm hadisəsinə çevrilib. Füsunkarlığı ilə göz oxşayan Bakı qlobal humanitar əməkdaşlıq üçün beynəlxalq məkana, "İntellektual Davosa" çevrilib.

Məqalədə Bakı Forumunun əsas məqsədlərindən söhbət açılır. Bildirilir ki, gələcəkdə beynəlxalq səviyyədə baxılması üçün yeni humanitar gündəmin formalaşdırılması, "dəyirmi masalar" vasitəsilə fərqli baxışlar arasında dialoqun qurulması prioritet vəzifələrdəndir. Forum ideyalar, nəzəri və praktiki biliklərin mübadiləsi, konstruktiv debat və müzakirələr üçün vacib platforma formalaşdırır. Səksənə yaxın ölkədən 400-dən çox nümayəndənin, o cümlədən müxtəlif sahələr üzrə 13 Nobel mükafatçısının iştirak etdiyi V Forumda müzakirə edilən mövzular da kifayət qədər rəngarəng və maraqlı olub.

Yazıda Prezident İlham Əliyevin Forumun açılışındakı nitqindən sitatlar gətirilir. Qeyd edilir ki, dövlət başçısı diqqəti son vaxtlar kəskinləşən regional toqquşmalara, Avropada qaçqınlar probleminə və radikal tendensiyaların güclənməsi ilə bağlı məsələlərə cəlb edib. Prezident İlham Əliyev Azərbaycanın bundan sonra da dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfələrini verəcəyini vurğulayıb.

Bundan başqa, Qazaxıstanın populyar www.matritca.kz saytında tanınmış ictimai xadim, Humanitar Forumda iştirak etmiş Askar Kumiranın geniş məqaləsi yayılıb. Məqalədə qeyd olunur ki, Bakı Beynəlxalq Humanitar Forumunun işində Qazaxıstandan da ictimai-siyasi xadimlərin və ekspertlərin fəal iştirakı təqdirəlayiqdir. Bu il Foruma dövlət katibi Gülşar Abdıkalikova başda olmaqla Qazaxıstandan xeyli qonaq qatılıb. Bakı Humanitar Forumu təkcə ərazi bütövlüyü pozulmuş və işğala məruz qalmış



Azərbaycan üçün deyil, bütün region ölkələri üçün çox əhəmiyyətli platformadır. Bakı artıq dünyanın intellektual elitası üçün həqiqi və real məkana çevrilib. Hazırda nəzəri və praktiki tərəfləri ilə multikulturalizmin müqayisəli tədqiqi, mədəniyyətlər və sivilizasiyalararası dialoq şəraitində XXI əsrin problemləri, sabit inkişaf üçün zəruri olan insan potensialının, universallığın formalaşması və tolerantlığın müstəqil mənəvi dəyər olaraq önə çıxması kimi mühüm problemləri müzakirə etmək üçün bu qədər geniş tərkibli nümayəndələrin bir araya gəlməsinə qucaq açan qlobal miqyaslı intellektual məkanlar çox azdır. Bu baxımdan, Azərbaycanın və Qazaxıstanın siyasi kursu bir-birini tamamlayır. Hər iki ölkə multikulturalizmi dövlət siyasətinin prioritetləri sırasına daxil edib və bunu əyani olaraq fəal şəkildə həyata keçirir. Multikulturalizm hər iki qardaş ölkənin həyat tərzinə çevrilib.

# Bölgə xəbərlərimiz

Oktyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ucar bölgəsi üzrə şöbəsinin, Göyçay və Ucar rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə Göyçay şəhər "Əbülfəzlil Abbas" və Ucar şəhər "Cami" məscidində "İslamda mötədillik" mövzusunda tədbirlər keçirilib. Tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları Nizami Məmmədov, Rauf Nəsirov, Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavinləri-dini qurumlarla işin təşkilatçıları və QMİ-nin Göyçay rayonu üzrə səlahiyyətli nümayəndələri Rəsul Kazımov və Cavid Səfərov iştirak ediblər.

Rayonda fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirak etdikləri tədbirlərdə mötədilliyin müxtəlif dini məzhəblərin yaşadığı toplumda birgəyaşayışın şərtlərindən olduğu vurğulanıb. Hər iki tədbirdə çıxış edən natiqlər mötədilliyin yalnız dini mövzulara aid olmadığını, din ilə yanaşı dünyaya dair məsələlərdə də qızıl ortanı tapmağın vacibliyini qeyd ediblər.

* * *

Oktyabrın 5-də DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Kürdəmir şəhərində "Din adı, pərdəsi altında ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına çalışan radikal qüvvələrin qarşısının alınmasında birgə mübarizənin vacibliyi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev və şöbənin əməkdaşları, rayon ictimaiyyəti, dini icma sədrləri, dindarlar, rayonun təhsil, səhiyyə, eləcə də mədəniyyət işçiləri iştirak ediblər.





Tədbirdə Məhərrəm ayının başlanması ilə əlaqədar olaraq Aşura günü təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımızın və qazilərimizin də xatirələrinin yad edilməsi, bütün mərasim və tədbirlərin qanun çərçivəsində təşkil edilməsi tövsiyə olunub.

İştirakçıları maraqlandıran sualların cavablandırılması ilə tədbir öz işini yekunlaşdırıb.

* * *

Oktyabrın 7-də Masallıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Masallı Rayon İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsi bölgə nümayəndələrinin birgə təşkilatçılığı ilə məhərrəmlik mərasimlərinin təşkili və Aşura günü ilə bağlı "Aşura mərasimlərində dini sabitliyin və mövcud qanunvericiliyin qorunması yolları" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə idarə və təşkilatların, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyətin və dini icmaların, arazi və bələdiyyə nümayəndələri, ağsaqqal və ziyalılar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov keçirilən dini mərasimlərə ciddi nəzarət, zərərli təriqət üzvlərinin, dövlətçiliyimizin əleyhinə moizələr edən radikal "dindarların" aşkarlanıb cəmiyyət tərəfindən qınanması, dini maarifləndirmənin İslam dəyərlərinə uyğun gücləndirilməsi və digər vacib məsələlərə toxunaraq aidiyyəti təşkilatlara tapşırıq və tövsiyələrini verib.

QMİ-nin Cənub bölgəsi üzrə qazısı Mirqiyas Təhməzov bildirib ki, məhərrəmlik mərasimləri ibadət ocaqlarında ictimai asayişə riayət olunmaqla keçirilməli, təziyə məclislərində Kərbəla şəhidləri ilə yanaşı, Vətənimiz uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın da əziz xatirəsi ehtiramla anılmalıdır.

DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov milli-mənəvi və dini dəyərlərimizin təbliğ-təşviqi üçün dindarları mərasimlərə vaxtı diqqətli olmağa, zəruri qaydalara əməl etməyə çağırıb.

Tədbirdə həmçinin digər aktual məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 13-də Ağcabədi rayon Mərkəzi Xəstəxanasında Ağcabədi rayon hüquq-mühafizə orqanlarının rəhbərləri və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Vəhhabilik və digər zərərli dini təriqətlərə qarşı mübarizə" mövzusunda dini maarifləndirici seminar keçirilib.

Seminarda Ağcabədi rayon prokuroru, baş ədliyyə müşaviri Salman Səmədov, Ağcabədi rayon polis şöbəsinin rəisi Məhəmməd İbrahimov, Dövlət Təhlükəsizlik



Xidmətinin Ağcabədi şöbəsinin rəisi Natiq Zamanov, Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Naibə Mustafayeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov, Ağcabədi rayon Mərkəzi Xəstəxanasının baş həkimi Azad Hüseynov, rayon səhiyyə və tibb işçilərinin 300-dən artıq nümayəndəsi iştirak edib.

Seminarın sonunda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

* * *

Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə ayrılan vəsaitə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub Ağa məscidi dini icması "Tolerantlıq-radikalizmə alternativ kimi" layihəsi çərçivəsində "Radikalizmin cəmiyyətə gətirdiyi bəlalar" mövzusunda tədbir keçirib.

Dağ Kəsəmən kənd İlqar Salıfov adına 2 saylı tam orta məktəbin şagird və müəllimlərinin iştirakı ilə baş tutan tədbiri giriş sözü ilə açan məktəbin direktoru Təranə Alməmmədova gənclərin dini radikal qruplara qoşulmaması üçün maarifləndirmə tədbirlərinin vacib olduğunu deyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Eldəniz Vəliyev çıxış edərək dini radikalizmin fəsadları və qarşısının alınması yollarından danışıb.

* * *

Oktyabrın 15-də İsmayıllı Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları" mövzusunda dini maarifləndirici seminar keçirilib.

Seminarda Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev, Dövlət Təhlükəsizlik Xidmətinin İsmayıllı şöbəsinin rəisi Fəxrəddin Babayev, İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Murad Məhərrəmov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, İsmayıllı rayon Təhsil şöbəsinin müdir müavini Rahim Baxışov və rayon təhsil işçiləri iştirak ediblər.

Məruzə ətrafında DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli zərərli dini təriqətlər və digər belə dini cərəyanların yaranması, təbliğat metodları, məqsədləri haqqında geniş məlumat verib.

* * *

Oktyabrın 17-də DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin və Ağsu Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları" mövzusunda dini maarifləndirici tədbir keçirilib.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Mirqubad Orucov, Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Dövlət Təhlükəsizliyi Xidmətinin Şamaxı regional şöbəsinin əməkdaşı Mədəd Rəhimov, Ağsu Rayon Polis Şöbəsinin rəis müavini Kərim Kərimov, QMİ-nin Ağsu rayonu üzrə səlahiyyətli nümayəndəsi Nurəddin İslamov, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir DQİDK-nın sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Daha sonra tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli mövzu ilə bağlı çıxış edərək zərərli dini təriqətlərin yayılmasına qarşı bu cür tədbirlərin keçirilməsinin vacibliyindən danışıb.

Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Mirqubad Orucov dini radikalizmin fəsadları və qarşısının alınması yollarından danışaraq İslam dininin düzgün formada gənclərə çatdırılmasının vacibliyindən bəhs edib.

* * *

Oktyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət Təhlükəsizlik Xidməti və Mingəçevir Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Mingəçevir şəhərində "Azərbaycanda dini ekstremizmə qarşı mübarizədə tolerantlıq və multikulturalizm ənənələrinin rolu" mövzusunda konfrans keçirilib.

Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşları, şəhər ictimaiyyəti, təhsil, mədəniyyət işçiləri və tələbələrin iştirak etdiyi tədbirdə çıxış edən DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev Azərbaycanda radikalizm və ekstremizmə qarşı mübarizə çərçivəsində həyata keçirilən maarifləndirmə tədbirlərindən bəhs edib. O, məruzəsində dini radikalizmə qarşı mübarizədə dini icmaların rolunun artırılması, radikalizmin yayılması və gənclərin radikal fikirlərin təsiri altına düşməsinin qarşısının alınması barədə ətraflı danışıb.

Sonra konfransda Mingəçevir Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev "Azərbaycanda dini ekstremizmə qarşı mübarizədə tolerantlıq və multikultural ənənələrin rolu", Dövlət Təhlükəsizlik Xidmətinin Mingəçevir şəhər şöbəsinin əməkdaşı Camal İsayev "Terrorçuluq və dini ekstremizmə qarşı mübarizənin təşkili" və Mingəçevir şəhər Heydər məscidi axundunun müavini Bəhruz Əhmədov "Gənclərin tərbiyəsində dinin rolu" mövzularında çıxışlar ediblər.

* * *

Oktyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Siyəzəndə "Tolerantlıq və dini radikalizmlə mübarizə" adlı tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Dövlət Təhlükəsizliyi Xidmətinin Şabran rayon şöbəsinin əməkdaşı Fariz Nağıyev, Siyəzən Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov, QMİ-nin Şabran, Siyəzən və Xızı rayonları üzrə qazısı Cavanşir Əfəndiyev, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Siyəzən Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin

⇨ 13

# Bölgə xəbərlərimiz



⇨12 müdir müavini-dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov çıxışında Azərbaycanda mövcud olan tolerant mühit və multikultural ənənələr barədə ətraflı məlumat verib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev çıxışında radikalizmin yaranma tarixindən, radikalizmin baş vermə səbəblərindən və qarşısının alınması üçün həyata keçirilməsi vacib olan tədbirlərdən bəhs edib. Daha sonra çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin Şabran rayon şöbəsinin əməkdaşı F.Nağıyev məruzəsində dini terrorizmlə və ekstremizmlə mübarizə sahəsində həyata keçirilən qanuna müvafiq tədbirlərdən, QMİ-nin qazısı C.Əfəndiyev isə dövlətin dini icmalara ayırdığı diqqət və qayğıdan danışıblar.

* * *

Oktyabrın 19-da Qobustan rayonu Təklə kənd tam orta məktəbində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin və Qobustan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə" mövzusunda dini maarifləndirici tədbir keçirilib.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Dövlət Təhlükəsizliyi Xidmətinin Şamaxı regional şöbəsinin əməkdaşı Ramil Zeynallı, Qobustan rayon Polis Şöbəsinin Narkotiklərlə Mübarizə qrupunun əməliyyat müvəkkili Zaur Tağıyev, Qobustan şəhər "Heydər" məscidi dini icmasının sədri Çingiz Babaşov, ağsaqqallar, müəllimlər və şagirdlər iştirak ediblər.

Çıxışlarda dini radikalizmlə mübarizədə dini maarifləndirmənin əhəmiyyətindən, radikal dini cərəyanların yaranma səbəbləri, təbliğat metodları, habelə bu cür hallara qarşı mübarizə üsulları haqqında geniş bəhs olunub.

* * *

Oktyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Şabran Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şabran şəhəri Heydər Əliyev Mərkəzində "Tolerantlıq və dini radikalizmlə mübarizə" adlı tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Şabran Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Mehdi Balabəyov, Dövlət Təhlükəsizliyi Xidmətinin Şabran rayon şöbəsinin əməkdaşı Fariz Nağıyev, QMİ-nin bölgə üzrə səlahiyyətli nümayəndəsi Cavanşir Əfəndiyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxış edən natiqlər ölkəmizdə tarix boyu mövcud olan multikultural və tolerant ənənələrindən, dövlət-din münasibətlərindən, dini terrorizmlə və ekstremizmlə mübarizədən danışıblar.

***

Oktyabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Kürdəmir Rayon İcra Hakimiyyəti, Rayon Polis İdarəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Kürdəmir Rayon şöbəsinin birgə təşkilatçılığı ilə Kürdəmir şəhərində "Dini radikalizm-dini ekstremizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.

Tədbirdə Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, Rayon Polis İdarəsinin əməkdaşı Nizami Abbasov, DTX-nın Kürdəmir rayon şöbəsinin əməkdaşı Kamran Dadaşov, rayonun təhsil və mədəniyyət işçiləri iştirak ediblər.

Tədbirdə dini ekstremizm, terrorizm, narkomaniya və başqa bu kimi cəmiyyət xəstəlikləri ilə mübarizədə cəmiyyətin dəstəyinin rolu, müasir dövrdə İslam dünyasında dini radikallığın yaranma səbəbləri və onun fəsadları, terrorçuluq və dini ekstremizmə qarşı mübarizə barədə iştirakçılara ətraflı məlumat verilib.

* * *

Oktyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin Şamaxı regional şöbəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə" mövzusunda Şamaxı şəhər S.M.Qənizadə adına 1 saylı tam orta məktəbində dini maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli məruzəsində dini radikalizmlə mübarizədə dini maarifləndirmənin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, məhz ölkədə dini sahədə aparılan maarifləndirmə tədbirlərinin nəticəsi kimi radikalizm meyilləri kifayət qədər azalıb.

QMİ-nin Şamaxı və Qobustan rayonları üzrə səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev ölkəmizin tarixi dini ənənələri və bu ənənələrin qorunmasının vacibliyindən bəhs edib.

Daha sonra çıxış edən Rayon Polis Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun inspektoru Rahim Orucov dini radikalizmə qarşı mübarizə metodları və üsullarını tədbir iştirakçılarının nəzərinə çatdırıb.

* * *

Oktyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bərdə Rayon İcra Hakimiyyəti və Dövlət Təhlükəsizliyi Xidmətinin Bərdə rayon şöbəsinin birgə təşkilatçılığı ilə Bərdə rayonu 5 saylı orta məkəbdə "Terrorçuluğa və dini ekstremizmə qarşı mübarizə" mövzusunda konfrans keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin, Bərdə Rayon İcra Hakimiyyətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin Bərdə rayon şöbəsinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, dini icma sədrləri, dindarlar, şəhərin təhsil, mədəniyyət və səhiyyə işçiləri iştirak ediblər.

Natiqlər öz çıxışlarında Azərbaycanda müxtəlif dini etiqadlara bərabərhüquqlu şərait yaradılması, ölkəmizdə İslam dəyərləri ilə tolerant dəyərlərin mükəmməl səviyyədə uzlaşdırılması, dini ekstremizmə və terrorçuluğa qarşı mübarizə metodları və cəmiyyətin bu sahədə maarifləndirilməsi barədə ətraflı danışıblar.

* * *

Oktyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Radikalizm və onun fəsadları" adlı dini maarifləndirici tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, şöbənin baş məsləhətçisi Cavid Əhmədov, QMİ-nin səlahiyyətli nümayəndəsi Mərəhmət Mustafayev, dini icma üzvləri, müəllimlər və şagirdlər iştirak ediblər.

Çıxışlar zamanı dini radikalizm və onun fəsadları, dini radikalizmə qarşı mübarizə metodları barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib, həmçinin, milli-mənəvi dəyərlərimizin qorunmasında yeniyetmə və gənclərin üzərinə düşən mühüm vəzifələr barədə fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bərdə Rayon İcra Hakimiyyəti və Dövlət Təhlükəsizliyi Xidmətinin Bərdə rayon şöbəsinin birgə təşkilatçılığı ilə Bərdə rayonu Heydər Əliyev Mərkəzində "Terrorçuluğa və dini ekstremizmə qarşı mübarizə" mövzusunda konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsi, Bərdə Rayon İcra Hakimiyyəti və Dövlət Təhlükəsizliyi Xidmətinin Bərdə rayon şöbəsinin əməkdaşları, şəhərin təhsil və mədəniyyət işçiləri iştirak ediblər. Konfransı giriş sözü ilə açan DTX-nın Bərdə rayon şöbəsinin rəisi Məzahir Xəlilov dini ekstremizmə və terrorçuluğa qarşı mübarizə metodları, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq həyata keçirilməkdə olan tədbirlər barədə danışıb.

Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Rahib İbrahimov, Bərdə Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Eldəniz Səfərov, Bərdə rayon Gənclər və İdman İdarəsinin rəisi Anar Şahbazov, YAP-ın Bərdə rayon təşkilatının sədri Fərid Fərzəliyev mövzu ilə bağlı çıxışlar ediblər.

Natiqlər cəmiyyətin dini ekstremizmə qarşı mübarizə çərçivəsində maarifləndirilməsinin, ekstremizmə və terrorçuluğa qarşı mübarizədə rolunun artırılmasının əhəmiyyətindən danışıblar.

* * *

Oktyabrın 24-də Xızı rayonu Giləzi qəsəbəsində yerləşən tam orta məktəbdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Şabran rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.

Tədbirdə DTX-nın Şabran rayon şöbəsinin əməkdaşları Fariz Nağıyev, Xəyal Qocayev, DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərov, əməkdaşı Ülvi Məmmədov, Xızı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ceyhun İsgəndərov, din xadimləri və gənclər iştirak ediblər.

Natiqlər tədbirdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini radikalizmə qarşı mübarizə, dini fanatizm və dini fundamentalizmin mahiyyəti və zərərli dini cərəyanlar barədə iştirakçılara ətraflı məlumat veriblər.

* * *

Oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Qobustan şəhər 1 saylı tam orta məktəbində Qobustan şəhəri "Heydər" məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Radikalizm və onun fəsadları" mövzusunda dini maarifləndirici tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin müdiri Rəhim Rəhimli, Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, dini icmanın sədri Çingiz Babaşov, şəhər 1 saylı tam orta məktəbin direktoru İmran Sabirov, müəllimlər və şagirdlər iştirak ediblər.



Çıxışlar zamanı dini radikalizm və onun fəsadları, onun cəmiyyətə vura biləcəyi zərbələrin acı nəticələri, habelə dini radikalizmə qarşı mübarizə metodları barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib və radikalizmin qarşısının alınmasında təhsilin önəmi xüsusi qeyd edilib. Həmçinin milli-mənəvi dəyərlərimizin qorunmasında yeniyetmə və gənclərin üzərinə düşən mühüm vəzifələr barədə fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 25-də Balakən rayonunda İtitala kənd dini icması tərəfindən həyata keçirilən "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsinin təqdimatı və sözügedən layihə çərçivəsində "Milli-mənəvi dəyərlərimizin formalaşmasında gənclərin rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Fariz Nəcəfov, Dini Qurumlarla İş

⇨14

## Bölgə xəbərlərimiz

⇦13 üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin əməkdaşları və İtitala kənd məktəbinin müəllim və şagirdləri iştirak ediblər.

Layihənin rəhbəri Hacıməhəmməd Əliyev çıxışı zamanı bildirib ki, xalqımızın milli



və dini dəyərləri bir-birilə sıx birləşərək mənəvi sərvətimizi formalaşdırıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsin Zaqatala bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Elvin Qarayev məruzəsində vurğulayıb ki, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması gənclərin ən mühüm vəzifələrindən biridir və onların milli vətənpərvərlik ruhunda tərbiyə olunması vacibdir.

Tədbirdə çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Fariz Nəcəfov gənclərə milli dəyərlərimizin təhrif olunması və ona qarşı mübarizədə təhsil amilinin əhəmiyyəti haqqında geniş məlumat verib. Eyni zamanda onu da vurğulayıb ki, hər bir gənc öz vətəndaşlıq mövqeyinə yiyələnməlidir. Vətəndaşlıq mövqeyi isə azərbaycançılıq ideyasının gənclər tərəfindən mənimsənilməsi yolu ilə əldə olunur.

* * *

Oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsi, Qusar Rayon İcra Hakimiyyəti və Qusar rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Qusarda "Multikultural dəyərlərin təbliğində gənclərin rolu" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Ağasiyev, Qusar RİH-in əməkdaşı Zeynal Əskərov, Qusar rayon Gənclər və İdman idarəsinin rəis müavini Ramin Məcidov, Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatının təlimatçısı Bəhruz Ramazanov, Qusar peşə liseyinin tələbələri, ümumtəhsil məktəblərinin şagirdləri, rayonun ictimai-siyasi həyatında fəallıq göstərən gənclər iştirak ediblər.

Tədbiri açıq elan edən Qusar rayon Gənclər və İdman İdarəsinin rəis müavini Ramin Məcidov 2016-cı ilin "Multikulturalizm" ili elan edildiyini, bu məqsədlə rayonda müxtəlif xalqların, etnik azlıqların mədəni inkişafını təmin edən tədbirlərin həyata keçirildiyini qeyd edib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Ağasiyev qeyd edib ki, multikulturalizm Azərbaycanın hələ keçmişdən movcud olan dəyəridir. Bu dəyər bu gün dini icmalar və müxtəlif xalqlar, etnoslar arasında olan tolerantlıq nümunəsində də özünü göstərir.

Tədbirdə çıxış edən Qusar rayon Gənclər və İdman idarəsinin əməkdaşı Sevil Dəmirova sülhün qorunması, iqtisadi və mədəni inkişafda multikultural



dəyərlərin əhəmiyyətindən danışaraq, Azərbaycanda mövcud olan bu dəyərlərin dünyaya bir nümunə olduğunu bildirib.

Tədbirdə rayon gəncləri adından çıxış edən Qusar peşə liseyinin tələbəsi Nübar Yunusova və digər məruzəçilər qeyd ediblər ki, Qusar gəncləri hər zaman olduğu kimi, bundan sonra da ölkəmizdə mövcud olan yüksək səviyyəli tolerantlıq və multikultural ənənələrin qorunub saxlanılmasında əllərindən gələni əsirgəməyəcəklər.

* * *

Oktyabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Quba rayonu Hacıhüseynli kənd İnzibati Ərazi Dairəsinə daxil olan kəndlərin sakinlərinin iştirakı ilə "Dini radikalizmlə ideoloji mübarizə" adlı tədbir keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai – siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, Quba rayonu Hacıhüseynli kənd İnzibati Ərazi Dairəsi üzrə Rayon İcra Hakimiyyəti başçısının nümayəndəsinin müavini Ələsgər Manafov, əraziyə daxil olan kəndlərin din xadimləri, ağsaqqallar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Quba rayonu Hacıhüseynli kənd İƏD üzrə Quba Rayon İcra Hakimiyyəti başçısının nümayəndəsinin müavini Ələsgər Manafov bildirib ki, ölkədə dini sahədə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda radikallığa meyillənmə hallarında səngimə yaranıb. Artıq azərbaycanlı gənclər xarici dövlətlərdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşməyə getmirlər. Onlar düzgün olaraq dərk edirlər ki, hər kəs öz Vətəninin azadlığı uğrunda döyüşlərdə iştirak etməlidir.

Tədbirdə çıxış edən Quba Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai – siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov qeyd edib ki, Quba Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsi birlikdə Quba rayonunun ərazisində dini maarifləndirmə sahəsində çoxsaylı tədbirlər təşkil edir və ən ucqar kəndlərdə belə görüşlər keçirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycan dövləti hər zaman öz vətəndaşının qayğısına qalaraq onun bütün problemlərinin həlli üçün adekvat addımlar atır. Dini sahədə radikallığı təbliğ edib, vətəndaşlarımızı aldadaraq münaqişəli ölkələrdə qanunsuz silahlı birləşmələrin tərkibində vuruşmağa həvəsləndirənlərlə yalnız həyata keçirilən güclü ideoloji işin nəticəsində qalib gəlmək mümkün olub.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə" filmi nümayiş etdirilib. Filmin nümayişindən sonra iştirakçıların sualları cavablandırılıb.

# Hüquq-mühafizə orqanları ilə birgə reyd

Oktyabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hüquq-mühafizə orqanları ilə birgə "Sədərək" Ticarət Mərkəzində yerləşən dini təyinatlı ədəbiyyatın və əşyaların satışı ilə məşğul olan 6 mağazada monitorinq keçirib. Monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə markalanması ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

Həyata keçirilən reyd zamanı bəzi mağazaların dini təyinatlı ədəbiyyat və dini məzmunlu başqa məmulatların satışı ilə məşğul olması üçün DQİDK-dan müvafiq razılıq almadığı, həmçinin, bəzi mağazalarda satılan dini təyinatlı ədəbiyyatlara icazənin verilmədiyi və nümunələrinin nəzarət markası ilə markalanmadığı, eləcə də həmin mağazaların ətrafında dini atributların asıldığı aşkar edilib.

Qeydə alınmış qanun pozuntuları hüquq-mühafizə orqanları tərəfindən müvafiq qaydada sənədləşdirilib. Hazırda aşkar edilmiş qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar davam etdirilir.

# Lənkəranda "Azərbaycanda ənənəvi İslam dəyərləri: tarixilik və varislik" mövzusunda tədbir keçirilib

**Oktyabrın 11-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə Tədbirlər Planına uyğun olaraq, gənclər arasında milli-mənəvi dəyərlərin təbliğ edilməsi və dini radikalizmə qarşı mübarizə məqsədi ilə Lənkəran şəhərində "Azərbaycanda ənənəvi İslam dəyərləri: tarixilik və varislik" mövzusunda tədbir keçirilib.**



Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sektorunun müdiri Əli Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Aydın Məmmədov və Lənkəran-Astara zonası üzrə gənclər və idman idarələrinin rəhbərləri, tələbələr və fəal gənclər iştirak ediblər.

Çıxış edən natiqlər mövzuya uyğun olaraq, ənənəvi İslam dəyərlərinin düzgün təbliğinin aparılmasında gənclərin fəallığından və onların üzərlərinə düşən vəzifələrdən ətraflı danışıblar.

Çıxışçılar məruzələrində respublikamızda mövcud ənənəvi İslam dəyərlərinin düzgün təbliğinin aparılmasında gənclərin fəallığının daha da artırılması, müasir ailə dəyərlərinin formalaşması, multikultural dəyərlər, milli və dini tolerantlıq, dünyəvilik prinsiplərindən, ölkədə dini etiqad azadlığının təmin olunmasından və azərbaycançılıq məfkurəsinin geniş təbliğinin zəruriliyindən bəhs ediblər. Dini ekstremizmə qarşı mübarizədə gənclərin əməli fəaliyyətinin daha da intensivləşməsinin vacibliyi çıxışlarda xüsusilə qeyd olunub.

Tədbirdə, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə" sənədli filmi nümayiş etdirilib.

# "Azərbaycanda dövlət-din münasibətləri - 25 il"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri – 25 il" mövzusunda konfrans keçirilib.**

Konfransda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və dini konfessiyaların rəhbərliyi, media nümayəndələri, dinşünas ekspertlər, bu istiqamətdə fəaliyyət göstərən mütəxəssislər, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov tədbiri açaraq bildirib ki, bu günlərdə Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Sərəncam imzalayıb. Həmin Sərəncamdan irəli gələn məsələlərlə bağlı bir sıra tədbirlər keçirilir. Ona görə də dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı belə bir konfransın keçirilməsi təsadüfi deyil.

Konfransın keçirilməsində əsas məqsəd müstəqilliyimizin bərpasından ötən 25 il ərzində respublikamızda dövlət-din münasibətlərinin inkişaf dinamikası, dövlətin dinə qayğısı, xalqımızın multikulturalizm və tolerantlıq ənənələrinin daha da gücləndirilməsi sahəsində görülən işlər və bu sahədə qarşıda duran məsələlərin müzakirəsidir.

G.İsmayılov qeyd edib ki, Azərbaycanda həyata keçirilən din siyasətinin əsas mahiyyəti dini etiqad, vicdan azadlığının təmin edilməsidir. Bununla yanaşı, konfessiyalararası münasibətləri, dinlərarası dialoqu, tolerantlıq mühitini qoruyub saxlamaq əsas prioritet istiqamətlərdən biridir. 25 il ərzində, dövlətimizin ən çətin günlərində belə tarixi-dini abidələrimizin bərpası yönünüdə önəmli bir kurs müəyyənləşdirilib



ki, bu siyasətin memarı Ulu Öndər Heydər Əliyevdir. Hazırda həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün respublikada 2166 məscid var. Bunların 1500-ü gündəlik fəaliyyət göstərir. Məscidlərdən 692-nin dini icması dövlət qeydiyyatından keçib. Azərbaycanda bütün ənənəvi dinlərin ibadət yerləri, məscidlər, kilsələr, sinaqoqlar və s. var və insanlar sərbəst şəkildə ibadətlərini, dini ayinlərini yerinə yetirə bilirlər. Gündüz İsmayılov deyib ki, müstəqillik dövründə milli-mənəvi dəyərlərin qorunub saxlanması, təbliği, tarixi-dini abidələrin bərpasında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi xidmətləri var.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Rəşad Əliyarlı, Rus Pravoslav Kilsəsinin nümayəndəsi Aleksandr Ata, Avropa Yəhudilərinin Bakı dini icmasının sədr əvəzi Aleksandr Şarovski, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, "Həyat sözü-2" dini icmasının sədri Elçin Paşayev çıxış edərək, dövlət müstəqilliyinin 25 illiyi münasibətilə keçirilən konfransı yüksək qiymətləndiriblər. Bildirilib ki, bütün çətinliklərə və xarici müdaxilələrə baxmayaraq, Azərbaycanda dini konfessiyalar arasındakı vəhdət, dinlərarası dialoq həmişə qorunub və bu digər ölkələr üçün nümunə hesab olunmalıdır. Multikultural və tolerant dəyərlər Azərbaycan xalqının həyat tərzidir və Azərbaycanın dünya dövlətlərinə təqdim etdiyi multikultural model xalqların dostluq və mehriban şəraitdə birgəyaşamasını təmin edən mükəmməl modeldir.

Konfrans öz işini müzakirələrlə davam etdirib.

# Los-Ancelesdə Azərbaycanın multikultural ənənələrindən danışılıb




Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun təşəbbüsü və dəstəyi ilə müxtəlif xristian dini icmaların rəhbərlərinin iştirakı ilə tədbir keçirilib.

Konsulluqdan bildirilib ki, tədbirdə Koreya, Çin və digər Asiya mənşəli icmalara, həmçinin Latino icmasına məxsus kilsələrin rəhbərləri, din xadimləri, müxtəlif xristian təşkilatların liderləri və KİV təmsilçiləri iştirak ediblər.

Tədbirdə baş konsul Nəsimi Ağayev çıxış edərək xristianlığın ölkəmizdəki qədim tarixi barədə məlumat verib. O, bu gün Azərbaycanda müsəlmanlar, xristianlar, yəhudilər, eləcə də digər etiqad daşıyıcıları arasında mövcud olan qardaşlıq münasibətlərindən danışıb.

N.Ağayev qeyd edib ki, ölkəmizin mürəkkəb coğrafi-strateji məkanda yerləşməsinə baxmayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyev tarixi dəyərlərimizi rəhbər tutaraq əsasını qoyduğu müasir Azərbaycan bu gün artıq beynəlxalq aləmdə özünəməxsus, mütərəqqi model kimi qəbul olunur. Baş konsul vurğulayıb ki, hazırda Prezident İlham Əliyev bu modelin daha da güclənməsi və inkişaf etdirilməsi üçün dinlərarası qarşılıqlı etimadın möhkəmləndirilməsinə, müxtəlif mədəniyyətlər arasında mübadilə imkanlarının genişləndirilməsinə xüsusi diqqət ayırır.

Baş konsul Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə də danışıb. O, Ermənistanın törətdiyi cinayətlərə dair konkret faktlardan bəhs edib. N.Ağayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əslə dini xarakter daşımadığını, yalnız və yalnız Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları nəticəsində meydana gəldiyini vurğulayıb.

Sonra ABŞ-ın Koreya icmasının rəhbərlərindən biri Heypin İm çıxış edərək Azərbaycanın dinlərarası münasibətlər və multikulturalizm sahəsindəki uğurları ilə bağlı fikirlərini bölüşüb. O bu il keçirilmiş V Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etdiyini bildirib, bu tədbirdə Azərbaycan modeli ilə birbaşa tanış olmaq fürsəti qazandığını vurğulayıb. Qeyd edib ki, əhalisinin 95 faizi müsəlmanlardan ibarət olan Azərbaycan beynəlxalq sülh üçün açar rolunu oynayır.

Daha sonra Latino xristian icması adından din xadimləri Uolter Contreras, Xose Pepe Cabayero və digərləri çıxış edərək müxtəlif etnik mənşəyə, məzhəblərə mənsub xristian icmalarının Azərbaycanın mütərəqqi modeli ətrafında bir araya gətirilməsini əlamətdar hadisə adlandırıblar. Dünyada təlatümlü proseslərin getdiyi bir zamanda Azərbaycan nümunəsinin daha yaxından öyrənilməsinin dinlərarası qarşılıqlı anlaşmanın əldə edilməsi baxımından çox faydalı ola biləcəyini deyiblər.

Tədbirdə, həmçinin Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Tolerantlıq diyarı Azərbaycan" filmi nümayiş olunub.

Sonda həm Asiya, həm də Latino icmalarının din xadimləri tərəfindən Azərbaycanın tolerant və multikultural dəyərlərə sadiq bir dövlət kimi daha da güclənməsi, çiçəklənməsi üçün dualar oxunub.

# ATƏT-in Berlindəki konfransında Azərbaycan multikulturalizmindən danışılıb




Berlində Almaniyanın ATƏT-ə 2016-cı ildəki sədrliyi çərçivəsində bu ölkənin Xarici İşlər Nazirliyində "Tolerantlıq və müxtəliflik" mövzusunda konfrans keçirilib.

Konfransda ölkəmizi Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin baş məsləhətçisi Etibar Nəcəfov təmsil edib.

Konfransa sədrlik edən Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer çıxış edərək bildirib ki, tolerantlıq və müxtəliflik hazırda baş verən sosial, siyasi parçalanmaların qarşısını ala biləcək məfhumdur, onların dünyada təşviqi çox vacibdir.

Konfransın "Müxtəliflik və tolerantlıq üçün təhsil: ümumi cəhətlərin dəstəklənməsi və ayrı-seçkiliyə qarşı mübarizə" adlı sessiyasında çıxış edən Etibar Nəcəfov deyib: "Müasir dövrdə bir çox ölkələrdə, xüsusilə Avropada qaçqın böhranının dərinləşməsi ksenofobiyanın, islamofobiyanın, ayrı-seçkiliyin artması ilə müşahidə olunur. Ermənistanın ölkəmizin torpaqlarının 20 faizini işğal etməsi və Ermənistandakı azərbaycanlıların etnik təmizləmə siyasəti nəticəsində doğma torpaqlarından çıxarılması Azərbaycan əhalisinin də hər doqquz nəfərdən birini qaçqın və məcburi köçkünə çevirib. Buna baxmayaraq, Azərbaycanda bu gün tolerantlıq ən yüksək səviyyədə qorunur, multikulturalizm həyat tərzi və dövlət siyasəti kimi təşviq olunur. Bunun nəticəsidir ki, dövlətimizin başçısı İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan edib və qəbul edilən xüsusi tədbirlər planı uğurla icra olunmaqdadır".

Sonra E.Nəcəfov təhsil vasitəsilə tolerantlığın təşviq olunmasının vacibliyi haqda danışıb və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin həyata keçirdiyi layihələrdə təhsil məsələsinin xüsusi önəm daşıdığını vurğulayıb. "Azərbaycan multikulturalizmi" fənninin təkcə ölkə daxilində deyil, böyük əksəriyyəti Avropada yerləşən iyirmidən artıq xarici universitetdə tədris olunduğunu diqqətə çatdırıb. Azərbaycanın bu təşəbbüsü konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Cəmiyyət və Din
№ 10 (303) / OKTYABR 2016-cı il

# İncil və Quran bir kitabda




ABŞ-dan olan iki dost alim - xristian Deyvid Hangerford və müsəlman Safi Kaskas Quran və İncili tərcümə edərək vahid kitab halına salıblar. Kitabda 3 minə yaxın paralel mövzu və süjet nümayiş etdirilir. Hangerford və Kaskasın fikrincə, bu layihə oxucunun iki müqəddəs kitabı müstəqil müqayisə etməsinə imkan verməklə yanaşı, xristianlar və müsəlmanlar arasında barış yaradacaq.

Kaskas bildirib ki, 11 sentyabr hücumlarından sonra Qərbdə baş verən sosial gərginlik hallarının çoxu xristianların müsəlmanlardan və onların müqəddəs kitabı Qurandan qorxmasından qaynaqlanır. Alimin sözlərinə görə, belə bir layihənin vaxtı çoxdan çatıb və onun istəyi "daha irimiqyaslı fəlakəti önləmək"dir.

"Ümid edirik, bu tərcümə insanlara göstərəcək ki, Xristianlıq və İslam müəyyən qədər fərqlənsələr də, bu iki dinin davamçıları arasında nəhəng bir körpü mövcuddur", - deyə doktor Hangerford bildirib. İsa Məsihin adının Quranda İsa peyğəmbər olaraq dəfələrlə çəkildiyini vurğulayan professor təəssüflə bildirib ki, müasir cəmiyyətdə İslam və Xristianlığın "ümumi bazasına" az diqqət yetirilir. Halbuki, hər iki din "Nazaretli İsanın şəxsiyyətinə" xüsusi önəm verir.

# Müsəlman qadın unikal məscid inşa edib





45 yaşlı memar Marina Təbəssüm Banqladeşdə ənənəvi müsəlman ziyarətgah təsəvvürünə tamamilə zidd olan, qeyri-adi məscid inşa edib. Müsəlman memar bilinən minarə və günbəzlərdən imtina edərək, maksimum dərəcədə lakonikliyə, sadəliyə və funksionallığa üstünlük verib. Paytaxt Dəkkəni gözəlləşdirən məscidin konstruksiyası yeni texnologiyalara əsasən elə inşa edilib ki, divarlar məscidin daxilini yayda sərin saxlayır.

"Mən dünyanın müxtəlif yerlərindəki bir çox məsciddə olmuşam, məscidin inşasında istifadə olunan daşlarla bağlı araşdırma aparmışam. Yalnız bundan sonra, mən şəxsi dizaynımı formalaşdırıb, bu məscidi inşa etmişəm", – deyə memar bildirib.

Qeyd etmək lazımdır ki, müsəlman məbədinin dizaynına bu cür orijinal yanaşma ekspertlər tərəfindən yüksək qiymətləndirilib. Məscid Ağa Xanın nüfuzlu memarlıq mükafatına layiq görülüb.

# Siqaret çəkən ataların astmatik övladlarının sayı üç dəfə çoxdur



Beynəlxalq Epidemiologiya Jurnalının (International Journal of Epidemiology) verdiyi xəbərə görə, ataları siqaret çəkən uşaqlarda astma xəstəliyi üç qat sürətlə inkişaf edir. Araşdırmada ataları yeniyetmə yaşından siqaret çəkən 24000 uşaq iştirak edib. Belə hesab olunur ki, uşağın inkişafına əsasən ananın həyat tərzi təsir göstərir, lakin bu heç də belə deyil. Tədqiqatın rəhbəri, Norveçin Bergen Universitetinin professoru Sesil Sveysin sözlərinə görə, "ataları siqaret çəkən uşaqlar arasında astmatiklərin sayı üç dəfə çoxdur". Onun komandası aşkarlayıb ki, kişilərin qaynaq tüstüsünü udması da gələcək nəsildə astma yaranma riskini artırır.

Bundan əlavə, son tədqiqatlar göstərir ki, hətta atanın qidalanması belə gələcəkdə uşaqlara, məsələn, qlükozanı həzm etməsinə və xolesterin ilə mübarizə aparmasına öz təsirini göstərir.

## Yadigar söz

**"Bağışlamaq zəfərin zəkatıdır".**

**Məhəmməd peyğəmbər (s)**

## Bakı və Abşeron üzrə namaz vaxtları (noyabr)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 5:48 | 7:10 | 12:24 | 15:57 | 17:53 | 18:54 |
| 2 | 5:49 | 7:11 | 12:24 | 15:56 | 17:52 | 18:53 |
| 3 | 5:50 | 7:12 | 12:24 | 15:54 | 17:50 | 18:52 |
| 4 | 5:51 | 7:13 | 12:24 | 15:53 | 17:49 | 18:51 |
| 5 | 5:52 | 7:14 | 12:24 | 15:52 | 17:48 | 18:50 |
| 6 | 5:53 | 7:15 | 12:24 | 15:51 | 17:47 | 18:49 |
| 7 | 5:54 | 7:17 | 12:24 | 15:50 | 17:46 | 18:48 |
| 8 | 5:55 | 7:18 | 12:24 | 15:49 | 17:45 | 18:47 |
| 9 | 5:56 | 7:19 | 12:24 | 15:48 | 17:44 | 18:47 |
| 10 | 5:57 | 7:20 | 12:24 | 15:47 | 17:43 | 18:46 |
| 11 | 5:58 | 7:21 | 12:24 | 15:46 | 17:42 | 18:45 |
| 12 | 5:59 | 7:22 | 12:24 | 15:45 | 17:41 | 18:44 |
| 13 | 6:00 | 7:24 | 12:25 | 15:45 | 17:41 | 18:43 |
| 14 | 6:01 | 7:25 | 12:25 | 15:44 | 17:40 | 18:43 |
| 15 | 6:02 | 7:26 | 12:25 | 15:43 | 17:39 | 18:42 |
| 16 | 6:03 | 7:27 | 12:25 | 15:42 | 17:38 | 18:41 |
| 17 | 6:04 | 7:28 | 12:25 | 15:41 | 17:37 | 18:41 |
| 18 | 6:05 | 7:29 | 12:25 | 15:41 | 17:37 | 18:40 |
| 19 | 6:06 | 7:31 | 12:26 | 15:40 | 17:36 | 18:40 |
| 20 | 6:07 | 7:32 | 12:26 | 15:39 | 17:35 | 18:39 |
| 21 | 6:08 | 7:33 | 12:26 | 15:39 | 17:35 | 18:38 |
| 22 | 6:09 | 7:34 | 12:26 | 15:38 | 17:34 | 18:38 |
| 23 | 6:10 | 7:35 | 12:27 | 15:38 | 17:34 | 18:38 |
| 24 | 6:11 | 7:36 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 25 | 6:12 | 7:37 | 12:27 | 15:37 | 17:33 | 18:37 |
| 26 | 6:13 | 7:38 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 27 | 6:14 | 7:39 | 12:28 | 15:36 | 17:32 | 18:36 |
| 28 | 6:15 | 7:41 | 12:28 | 15:35 | 17:31 | 18:36 |
| 29 | 6:16 | 7:42 | 12:29 | 15:35 | 17:31 | 18:36 |
| 30 | 6:17 | 7:43 | 12:29 | 15:35 | 17:31 | 18:35 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Misirdə uşaqlara İncil və Quranı öyrədən qibti



Misirdə bir qibti (Misirdə yaşayan xristian xalq) artıq 50 ildir ki, İncil və Quranı uşaqlara eyni zamanda öyrədir. Onun tələbələrinin üçdə ikisi müsəlman, digərləri xristianlardır və bu onlara hər iki inancın əsaslarını yan-yana, sülh və birlik şəraitində öyrənməyə qətiyyən mane olmur. Misirin şimalındakı Minya kəndində yaşayan Ayad adlı bu müəllim fəxr edir ki, onun tələbələri tolerant, qanuna tabe olan şəxs kimi yetişiblər. O hesab edir ki, xristianlar tez-tez yerli müsəlman çoxluğu tərəfindən ayrı-seçkiliyə və zorakılığa məruz qaldığından bu hal müxtəlif etiqada sahib ailələrin uşaqlarının birləşməsinə səbəb olacaq.

"Hazırda mənim sinfimdə 120 uşaq təhsil alır, onlardan 70-80-ni müsəlman, 30-40-ı isə xristian ailələrdən gəlirlər. Məktəbdə biz daima qarşılıqlı məhəbbətlə yaşayırıq" deyən Ayad əlavə edib ki, tədris üçün bir dollar civarında maaş alır. Lakin nifrəti təşviq edib 100 dollar almaqdansa, sevdiyi iş üçün 1 dollar almaq ona daha xoşdur. "Şadam ki, məktəb müəllimləri və valideynlər məni başa düşür və dəstəkləyirlər. Üstəlik, şagirdlərimin valideynlərinə vaxtilə mən özüm dərs demişəm, onlar da eyni qaydada layiqli insan kimi yetişiblər".

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### Dəyişiklik

**Gəncə şəhər Yəhudi dini icması**
**Qeydiyyat tarixi: 20 aprel 2016-cı il**
**Qeydiyyat №-si: 100116A – 638**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanında "Gəncə şəhəri, Şəddadilər küçəsi, ev 178" sözləri "Gəncə şəhəri, N.Nərimanov prospekti, ev 221" sözləri ilə əvəz edilərək Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 07 oktyabr 2016-cı il**

## E L A N

Lənkəran rayonu Liman şəhər məscidi dini icması (377 nömrəli, 29.06.2000-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 oktyabr 2016-cı il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Lənkəran rayonu Liman şəhər məscidi dini icmasının dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 29 iyun 2000-ci il tarixli, 377 nömrəli şəhadətnamə və 29 iyun 2000-ci il tarixli, 377 nömrəli nizamnamə itirildiyi üçün etibarsız sayılır.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib),* Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894